Rəsmi dövlət qəzeti



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 67 (8090) ŞƏNBƏ, 30 mart 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



# Dövlət yenə sahibkarlara sahib çıxdı

## Amma bu, hər kəsə öz işinə bundan sonra da məsuliyyətsiz yanaşmağa əsas vermir

Kim deyirsə ki, təbii fəlakətlərdən sığortalanmaq mümkün deyil - səhv edir. Lap elə zəlzələ, sel, daşqın olsun, fəsadlarını ən azı minimuma endirmək mümkündür və bunun dünya təcrübəsində yüzlərlə nümunəsi var. Biz hələ birbaşa insan faktoru ilə bağlı olan yanğınları, ev və ya bina uçqunlarını, yol çökmələrini demirik. Çünki belə hadisələr təbii yox, məsuliyyətsizliyin fəlakətidir.

Artıq bir neçə gündür "Diqlas" ticarət mərkəzində baş vermiş yanğın ölkə ictimaiyyətinin diqqət mərkəzindədir. Etiraf edək ki, bu, sıradan bir hadisə deyil. Mərkəzdə ticarətlə məşğul olan yüzlərlə iş adamının malları yanıb külə dönüb, onlar külli miqdarda ziyana düşüblər, işsiz, qazancsız qalıblar.

Amma hər zaman olduğu kimi, bu dəfə də Prezident İlham Əliyevin timsalında dövlət vətəndaşlarına arxa durdu, sahibkarları sahibsiz qoymadı. Dövlət başçısı mərkəzi və yerli icra qurumlarının rəhbərlərinin iştirakı ilə təcili müşavirə keçirdi, Nazirlər Kabinetinə baş vermiş yanğınla bağlı komissiya yaratmağı və görülmüş işlər haqqında məlumat verməyi tapşırdı. Ən başlıcası isə iş adamlarına dəymiş ziyanın hesablanandan sonra ödəniləcəyi bildirildi.

Gəlin etiraf edək: dünyanın indiki vaxtında öz vətəndaşlarına bu səviyyədə dayaq olan, bu dərəcədə humanist yanaşan, bu qədər güzəşt edən ikinci bir dövlət tapmaq çətindir. Hara sel gəlir - dövlət oradadır, harada zəlzələ baş verir - dövlət operativ tədbirlər görür, harada yanğın olur - dövlət yenə də vətəndaşlarını tək qoymur.

Amma bir məsələ də var ki, dövlətin bu humanist siyasətindən bəzi icra orqanları, eləcə də iri sahibkarlar sui istifadə edirlər. Belə olmasaydı, böyük ticarət mərkəzlərində nə artıq mütəmadi hal alan yanğınlar baş verər, nə təzə çəkilən yollar qısa müddətdən sonra dağılar, nə də xüsusən paytaxtda müxtəlif təyinatlı qanunsuz tikililər lövbər atardı.

Bu gün Azərbaycanda dövlətin dəstəyi, verdiyi geniş meydan və yaratdığı şərait hesabına bəzi ərköyün sahibkarlar təbəqəsi də formalaşıb. Onlara söz demək, irad tutmaq, qanunların çərçivəsini göstərmək mümkün deyil. Elə jest və ərklə danışırlar ki, sanki hamı onlara borcludur. Belələri o dərəcədə özbaşınalıq edirlər ki, hətta sutkanın az qala 15-18 saatını istismar etdikləri işçilərinə normal əməkhaqqı belə vermirlər. Buna əmin olmaq üçün ölkədə özəl sektor, xüsusən ticarət və ictimai iaşə sahələri üzrə verilən rəsmi əməkhaqqı və sosial ödəmələrə nəzər salmaq kifayətdir. Məlum olacaq ki, adları çəkilən sahələrdə çalışan sıravi işçilərin əksəriyyəti, sən demə, ölkə üzrə müəyyən olunmuş minimum əməkhaqqına işləyir. Düzdür, bu vəziyyət real rəqəmləri vergi və sosial ödəmələrdən gizlətmək üçündür. Amma sıravi işçilərə verilən real maaşlar da yüksək deyil axı... Sözümüzün canı budur ki, belə ərköyün sahibkarların sözünün üstünə nəhayət söz deyən lazımdır. Bu olsaydı, yəqin ki, "Diqlas" ticarət mərkəzində müasir yanğından mühafizə sistemi quraşdırılar, binanın sığortası olar və ümumiyyətlə, bu cür hadisələri qarşılamaq üçün tədbirlər görülərdi.

Sığortadan söz düşmüşkən. Prezident İlham Əliyevin yanğınla bağlı keçirdiyi müşavirədə dediyi sözlərdir: "Adətən inkişaf etmiş ölkələrdə belə hadisələr baş verdikdə burada bütün maliyyə yükünü sığorta şirkətləri öz üzərinə götürür, bütün mallar sığortalanır. Ancaq əfsuslar olsun ki, Azərbaycanda sığorta sahəsində boşluqlar var və bir çox hallarda biz bunu görürük".

Görürük və ziyanını çəkirik. Son hadisələr isə göstərir ki, ən çox ziyan çəkən də dövlət, yəni onun büdcəsi olur. Məgər büdcəmizin xərcləri azdır ki, onların təyinat istiqamətləri ölkədəki sayı heç də az olmayan sığorta şirkətlərinin fəaliyyətsizliyi üzündən dəyişdirilsin?! Hamıya məlum faktdır ki, bizim sığorta şirkətləri cüzi risk olan sahəyə üz çevirmək istəmirlər. Artıq neçə vaxtdır ən yüksək səviyyədə sığorta şirkətlərinin kənd təsərrüfatında fəaliyyət göstərmələri tövsiyə olunur. Amma nə xeyri? Onlar üçün icbari avtomobil sığortası istehsal edilən kənd təsərrüfatı məhsullarını sığortalamaqdan daha əlverişlidir. Birincini vəsait ödəməmək üçün min bir bəhanə ilə yola vermək mümkündürsə, ikinci "yağmadı yağış, bitmədi qamış" qədər risklidir. Dövlətin siyasəti, ölkənin iqtisadiyyatı, kəndlinin marağı belə sığorta şirkətləri üçün sonrakı dərəcəlidir, necə deyərlər, rəhmətlik M.Ə.Sabir demişkən: "Tək mən tox olum..."

Lakin sonacan belə davam edə bilməz. Sonuncu hadisə də göstərdi ki, hər bir icra orqanı öz üzərinə düşən vəzifənin öhdəsindən tələb edilən səviyyədə gəlməlidir. Əks halda bu məsuliyyətsizlik hətta təbii də olmasa, fəlakətlə nəticələnir. Onun altını isə dövlət çəkməli olur. O dövlət ki, indiki vaxtda onu belə əlavə qayğılarla yükləmək yolverilməzdir.

***Raqif MƏMMƏDOV,***
***"Azərbaycan"***

# Bakı şəhərinin Nizami rayonundakı ticarət mərkəzində baş vermiş yanğın nəticəsində zərər çəkmiş sahibkarlara maddi yardım göstərilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Bakı şəhəri, Nizami rayonu, Qara Qarayev küçəsi, 81Q ünvanında yerləşən ticarət mərkəzində fəaliyyət göstərən və 2019-cu il martın 26-da həmin ticarət mərkəzində baş vermiş yanğın nəticəsində zərər çəkmiş sahibkarlara maddi yardım göstərilməsi məqsədilə Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə ilkin olaraq 3,0 (üç) milyon manat ayrılsın.

2. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi:

2.1. zərər çəkmiş sahibkarlara bu sərəncamın 1-ci hissəsinə əsasən ayrılmış vəsait hesabına maddi yardım göstərilməsi qaydasını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla üç gün müddətində təsdiq etsin;

2.2. bu sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşmənin təmin etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 mart 2019-cu il*

# Azərbaycan Prezidenti ilə Ermənistanın baş nazirinin Vyanada görüşü olub



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin martın 29-da Vyanada Ermənistan-Azərbaycan münaqişəsinin həllini müzakirə etmək üçün Ermənistanın baş naziri Nikol Paşinyan ilə görüşü olub.

AZƏRTAC xəbər verir ki, əvvəlcə Azərbaycan Prezidenti İlham Əliyevin və Ermənistanın baş naziri Nikol Paşinyanın təkbətək görüşü keçirilib. Sonra görüş ATƏT-in Minsk qrupunun həmsədrlərinin iştirakı ilə davam edib.

# İlham Əliyev Vyanada Avstriyanın Federal Kansleri Sebastian Kurts ilə görüşüb







Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 29-da Vyanada Avstriya Respublikasının Federal Kansleri Sebastian Kurts ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, Federal Kansler Sebastian Kurts Prezident İlham Əliyevi qarşıladı.

Prezident İlham Əliyev və Federal Kansler Sebastian Kurts birgə foto çəkdirdilər. Sonra Prezident İlham Əliyevin Federal Kansler Sebastian Kurts ilə təkbətək görüşü oldu.

Prezident İlham Əliyev Avstriyada olmasından məmnunluğunu vurğulayaraq səfərin təşkilinə və dəvətə görə Federal Kansler Sebastian Kurtsa təşəkkürünü bildirdi və onu ölkəmizə səfərə dəvət etdi.

Ermənistanın baş naziri ilə Vyanada keçirdiyi görüş barədə Federal Kanslerə məlumat verən dövlətimizin başçısı bu görüşün təşkilinə görə də Avstriya tərəfinə minnətdarlığını ifadə etdi, Avstriyanın bu qəbildən olan görüşlərin təşkilində və keçirilməsində böyük təcrübəyə malik olduğunu söylədi. Azərbaycan ilə Avstriyanın yüksək səviyyəli siyasi əlaqələrinin mövcudluğunu diqqətə çatdıran Prezident İlham Əliyev ölkələrimiz arasında iqtisadi-ticarət, informasiya texnologiyaları, kənd təsərrüfatı, nəqliyyat və digər sahələrdə də əməkdaşlığın genişləndirilməsi üçün böyük potensialın olduğunu vurğuladı.

Söhbət zamanı Avstriya şirkətlərinin ölkəmizdə uğurla fəaliyyət göstərdiyi qeyd edildi. Həmçinin Azərbaycanda regionların iqtisadi inkişafı üzrə beşillik müddəti əhatə edən proqramın qəbul olunduğu bildirildi, bu proqram əsasında Avstriya şirkətlərinin də Azərbaycan ilə əməkdaşlıq imkanlarına toxunuldu.

Görüşdə, eyni zamanda, Azərbaycan-Avropa İttifaqı əlaqələrindən bəhs edildi, Avstriyanın bu münasibətlərin inkişafını dəstəklədiyi ifadə olundu. Məhz Avstriyanın sədrliyi dövründə Azərbaycan ilə Avropa İttifaqı arasında Tərəfdaşlıq Prioritetləri sənədinin imzalandığı qeyd edildi. Eyni zamanda, Avstriya ilə Azərbaycan arasında nəqliyyat sahəsində əməkdaşlığın vacibliyi vurğulanaraq Avstriya şirkətlərinin Azərbaycanın regionda yaratdığı nəqliyyat infrastrukturundan faydalana biləcəyi bildirildi.

Azərbaycan Prezidentinin dəvətini məmnunluqla qəbul edən Federal Kansler Sebastian Kurts Avstriyanın ölkəmizlə əməkdaşlığa böyük əhəmiyyət verdiyini vurğuladı.

Sonra görüş nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə davam etdirildi.

# Azərbaycan Prezidenti İlham Əliyevin Avstriyanın Federal Prezidenti Aleksander Van der Bellen ilə görüşü olub

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin martın 29-da Vyanada Avstriya Respublikasının Federal Prezidenti Aleksander Van der Bellen ilə görüşü olub.

AZƏRTAC xəbər verir ki, Federal Prezident Aleksander Van der Bellen Prezident İlham Əliyevi qarşıladı.

Prezident İlham Əliyev və Federal Prezident Aleksander Van der Bellen birgə foto çəkdirdilər.

Avstriyaya səfərindən məmnunluğunu ifadə edən dövlətimizin başçısı qonaqpərvərliyə və Ermənistanın baş naziri ilə görüşə evsahibliyi etdiyinə görə Avstriya tərəfinə minnətdarlığını bildirdi. Prezident İlham Əliyev Azərbaycanın Avstriya ilə ikitərəfli əlaqələrin inkişafına xüsusi əhəmiyyət verdiyini vurğuladı.

Federal Prezident Aleksander Van der Bellen Azərbaycan ilə Avstriya arasında möhkəm dostluq əlaqələrinin mövcudluğunu qeyd edərək bu səfərin ikitərəfli münasibətlərin inkişafı baxımından önəmli olduğunu dedi.

Prezident İlham Əliyev ölkələrimiz arasında iqtisadi-ticarət əlaqələrinin inkişaf etdirilməsi üçün Birgə Əməkdaşlıq Şurasının təsis olunduğunu və onun Vyanada ilk iclasının keçirildiyini deyərək bu formatda əməkdaşlığın ticarət dövriyyəsinin artırılmasına və Avstriya şirkətlərinin Azərbaycanda daha da fəal çalışmalarına imkan yaradacağına ümidvar olduğunu bildirdi. Dövlətimizin başçısı Avstriyanın Federal Prezidentinə ölkəmizin təşəbbüsü ilə regionda reallaşdırılan nəqliyyat layihələri barədə məlumat verərək Avstriya şirkətlərinin də bu nəqliyyat infrastrukturu imkanlarından istifadə edə biləcəyini diqqətə çatdırdı.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlərə dair fikir mübadiləsi aparıldı.







# Prezident İlham Əliyev Vyanada Rusiyanın TASS informasiya agentliyinə müsahibə verib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 29-da Vyanada Rusiyanın TASS informasiya agentliyinə müsahibə verib.

AZƏRTAC xəbər verir ki, müxbirin Ermənistanın baş naziri Nikol Paşinyanla danışıqları barədə sualına cavabında Azərbaycan Prezidenti İlham Əliyev deyib:

- Bildiyiniz kimi, xarici işlər nazirləri bir neçə raund danışıqlar aparıblar. Görüş ona görə mühümdür ki, məsələnin mahiyyəti ilə bağlı danışıqlar prosesinə yeni start verilib. Biz etimadı, ola bilsin ki, insanlar arasında təmaslar çərçivəsində möhkəmləndirməklə bağlı məsələləri müzakirə etdik. Bundan əvvəl ictimaiyyət nümayəndələri arasında təmaslar olub. Yəni, hələ bu barədə danışmaq tezdir, lakin humanitar məsələlərə gəldikdə, bu, nəzərdə tutulur. Çünki danışıqlar prosesi təbii ki, həm də humanitar aksiyalarla dəstəklənməlidir. Lakin mən hesab edirəm, əsas odur ki, danışıqların formatı dəyişilməz qalıb. Danışıqlar uzun illər olduğu kimi, Ermənistan ilə Azərbaycan arasında aparılır. İkincisi, danışıqlar prosesinə yeni təkan verilib. Bu da vacibdir. Biz Minsk qrupunun həmsədrlərinin 9 mart tarixli bəyanatını, - siz yəqin ki, onunla tanışsınız, - çox müsbət qiymətləndirdik. Orada deyilir ki, danışıqlar formatının dəyişdirilməsi yalnız iki tərəfin razılığı ilə ola bilər. Azərbaycan tərəfi təbii ki, buna razılıq vermədi. Ona görə də biz prinsipcə substantiv danışıqların davam etdirilməli olduğu vəziyyətə qayıtdıq. Xarici işlər nazirlərinə tapşırıqlar verilib. Onlar çox güman ki, nəticəyə yönələn danışıqlar prosesini davam etdirmək üçün yaxın vaxtlarda görüşəcəklər. Bizim üçün birinci yerdə beynəlxalq səviyyədə tanınmış Azərbaycan ərazilərinin beynəlxalq hüquq, Helsinki Yekun Aktı və BMT Təhlükəsizlik Şurasının Ermənistan silahlı qüvvələrinin işğal olunmuş ərazilərdən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən dörd qətnaməsi çərçivəsində işğaldan azad edilməsi məsələsi durur.

Müxbir: Çox sağ olun, cənab Prezident.



# Azərbaycanın Baş naziri Macarıstanın xarici işlər və ticarət nazirinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb

Azərbaycan Respublikasının Baş naziri Novruz Məmmədov martın 29-da ölkəmizdə səfərdə olan Macarıstanın xarici işlər və ticarət naziri Peter Siyartonun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, Baş nazir Novruz Məmmədov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Macarıstana səfərlərini xatırladaraq, ölkələrimiz arasındakı münasibətlərin strateji xarakter daşıdığını vurğuladı. Azərbaycan ilə Macarıstanın tarixi köklərə əsaslanan sıx münasibətlərinin olduğunu deyən Novruz Məmmədov ölkələrimiz arasında bütün sahələrdə, o cümlədən iqtisadiyyatın müxtəlif istiqamətlərində, energetika, turizm, kənd təsərrüfatı, İKT və humanitar sahələrdə mövcud əməkdaşlığın daha da inkişaf etdirilməsinin vacibliyini diqqətə çatdırdı.



Baş nazir Macarıstanın Ermənistan-Azərbaycan münaqişəsində ölkəmizin ədalətli mövqeyini daim müdafiə etdiyinə görə minnətdarlığını bildirdi.

Novruz Məmmədov Peter Siyartonun Azərbaycana səfəri çərçivəsində bu gün Azərbaycan Dillər Universitetində açılacaq Macar Dili və Mədəniyyəti Mərkəzinin iki ölkə arasında humanitar əməkdaşlığa töhfə verəcəyini qeyd etdi.

Ölkələrimiz arasında münasibətlərin inkişaf etdirilməsi üçün kifayət qədər imkanların olduğunu vurğulayan Macarıstanın xarici işlər və ticarət naziri Peter Siyarto dedi ki, Azərbaycana hər səfərində paytaxtımızda gördüyü inkişaf onda dərin təəssürat yaradır. Avropanın, o cümlədən Macarıstanın enerji mənbələrinin şaxələndirilməsinin vacibliyindən söz açan Peter Siyarto "Cənub qaz dəhlizi"nin önəminə toxundu və bu layihənin reallaşdırılmasında Azərbaycanın rolunu yüksək qiymətləndirdi. Qonaq Macarıstanın Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasında müşahidəçi statusu ilə təmsil olunduğunu xatırladaraq, tarixi köklərlə bağlı olduğu türkdilli ölkələrlə əməkdaşlığın dərinləşdirilməsində maraqlı olduqlarını dedi.

Görüşdə iqtisadi, energetika, investisiya qoyuluşu, nəqliyyat, humanitar və digər sahələrdə əməkdaşlığa dair fikir mübadiləsi aparıldı.

# Vyanada Azərbaycanın və Ermənistanın xarici işlər nazirlərinin görüşü olub

Martın 28-də Vyanada Azərbaycan Respublikasının xarici işlər naziri Elmar Məmmədyarov və Ermənistan Respublikasının xarici işlər naziri Zöhrab Mnatsakanyan arasında ATƏT-in Minsk qrupunun həmsədrlərinin vasitəçiliyi ilə görüş keçirilib.

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüş zamanı nazirlər Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinin irəli aparılmasının müxtəlif elementlərini, həmçinin Azərbaycan Prezidenti İlham Əliyev ilə Ermənistanın baş naziri Nikol Paşinyan arasında keçiriləcək görüşdə toxunula biləcək məsələləri müzakirə ediblər.



# Azərbaycanın və Ermənistanın xarici işlər nazirləri və ATƏT-in Minsk qrupunun həmsədrləri birgə bəyanat yayıblar

Azərbaycanın və Ermənistanın xarici işlər nazirləri və ATƏT-in Minsk qrupunun həmsədrləri birgə bəyanat yayıblar.

AZƏRTAC xəbər verir ki, ATƏT-in rəsmi saytında yerləşdirilən bəyanatda Azərbaycan Prezidenti İlham Əliyevin və Ermənistanın baş naziri Nikol Paşinyanın Minsk qrupunun həmsədrlərinin iştirakı ilə Vyanada ilk dəfə görüşdükləri bildirilir. Qeyd olunur ki, görüşdə hər iki ölkənin xarici işlər nazirləri Elmar Məmmədyarov və Zohrab Mnatsakanyan, ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anji Kaspşik də iştirak ediblər.

Bəyanatda vurğulanır ki, görüş müsbət və konstruktiv şəraitdə keçdi, hər iki liderin öz mövqelərinə aydınlıq gətirmək üçün imkan yarandı. Prezident və baş nazir tənzimləmə prosesinin bir sıra vacib məsələləri və substantiv ideyalar üzrə fikir mübadiləsi apardılar. Onlar sülh üçün əlverişli mühitin yaradılmasının və münaqişənin sülh yolu ilə həllinin tapılması üzrə danışıqlar prosesində konkret və tutarlı addımların atılmasının vacibliyini vurğuladılar.

Həmsədrlərin bəyanatında bildirilir ki, Prezident və baş nazir Düşənbədəki söhbətə istinad edərək atəşkəsin möhkəmləndirilməsinin və birbaşa əlaqə mexanizminin təkmilləşdirilməsinin vacibliyini yenidən təsdiq etdilər. Onlar öz ölkələrinin nazirlərinə yaxın gələcəkdə həmsədrlərlə yenidən görüşmək barədə təlimat verdilər, həmçinin birbaşa dialoqun davam etdirilməsi barədə razılığa gəldilər.

# Birinci vitse-prezident Mehriban Əliyeva diplomatik missiya rəhbərlərinin həyat yoldaşları ilə görüşüb

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva martın 29-da Bakıda diplomatik missiya rəhbərlərinin həyat yoldaşları ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, ölkəmizdə akkreditə olunan diplomatik missiya rəhbərlərinin həyat yoldaşları ilə görüşməkdən şad olduğunu bildirən **Azərbaycanın Birinci vitse-prezidenti Mehriban ƏLİYEVA** dedi:

- Hörmətli xanımlar.

Əziz dostlar.

Əziz xanım səfirlər.

Mən sizi görməyimə çox şadam və hər birinizi səmimi-qəlbdən salamlayıram. Bir az gec də olsa, sizinlə birlikdə Novruz bayramını qeyd etmək mənim üçün çox xoşdur.

Novruz Azərbaycanın ən sevimli, ruzili və nurlu bayramıdır. Novruz baharın, dirçəlişin simvoludur. Adətən Azərbaycanda Novruz bayramı ailə üzvləri ilə, dostlarla birlikdə bayram süfrəsi arxasında qeyd olunur. Bizim bugünkü görüşümüz də məhz dostluğun, qarşılıqlı hörmətin təzahürüdür.

Əziz qonaqlar, mən sizi bayram münasibətilə ürəkdən təbrik edirəm, sizə və ailə üzvlərinizə möhkəm cansağlığı, xoşbəxtlik, təmsil etdiyiniz ölkələrə sülh və əmin-amanlıq arzulayıram.

Siz xeyli vaxtdır ki, Bakıda yaşayırsınız. Ümidvaram ki, Azərbaycanda olduğunuz müddətdə ölkəmizi tanımaq və sevmək imkanınız olub. Bakı bu gün dünyanın ən gözəl şəhərlərindən biri kimi tanınır. Paytaxtımızın simasında Qərb və Şərq, qədimlik və müasirlik vəhdət təşkil edir. Azərbaycan qədim tarixə, mədəniyyətə, ənənələrə malik olan ölkədir. Eyni zamanda, biz müasir, dünyaya açıq, sülhsevər, daim əməkdaşlıq və inkişaf naminə çıxış edən ölkəyik. Azərbaycan çoxmillətli və çoxkonfessiyalı ölkədir. Əsrlərboyu Azərbaycan torpağında müxtəlif dinlərin və millətlərin nümayəndələri dostluq və sülh şəraitində yaşayıblar. Minilliklərlə formalaşan bu tolerantlıq və multikulturalizm ənənələri bu gün də Azərbaycan dövlətinin siyasətində öz əksini tapır və hər bir azərbaycanlının qəlbində yaşayır. Mən əminəm ki, siz Azərbaycanın ən böyük sərvəti olan insanlarımızın qonaqpərvərliyini, istiqanlılığını, səmimiliyini, insansevərliyini hiss etmisiniz. Ümidvaram ki, siz ölkəmizi tərk etdikdən sonra da Azərbaycan sizin qəlbinizdə xoş anlarla, sevinc dolu xatirələrlə yaşayacaq və yenidən ölkəmizə səfər etməyi unutmayacaqsınız.













Hörmətli xanımlar, 2019-cu il Azərbaycan üçün uğurla başlayıb. Bildiyiniz kimi, ölkəmizdə çox vacib islahatlara start verilib, həm iqtisadi sahədə, həm sosial sahədə. Bu gün atılan bütün addımlar Azərbaycanın gələcək uğurlu inkişafını təmin edəcək.

Çox xoş haldır ki, ölkəmizdə xarici səfirliklərin sayı artmaqdadır. Bu gün Azərbaycanda 65 diplomatik nümayəndəlik, 13 beynəlxalq təşkilat və 4 baş konsulluq fəaliyyət göstərir. Təmsil etdiyiniz ölkələrlə Azərbaycan qarşılıqlı maraq və hörmət əsasında əməkdaşlıq qurub və bu əlaqələr inkişaf etdirilir. Bu gün Azərbaycan beynəlxalq aləmdə etibarlı tərəfdaş kimi tanınır.

Hörmətli xanımlar, fürsətdən istifadə edərək mən sizin fəaliyyətinizi xüsusi vurğulamaq istərdim. Ölkələrimiz arasında dostluq münasibətlərinin möhkəmlənməsinə, Azərbaycanda humanitar, sosial sahələrdə icra olunan layihələrə dəstək verdiyinizə görə sizə dərin minnətdarlığımı bildirirəm.

Ölkələr və xalqlar arasında səmimi münasibətlərin formalaşmasında humanizm, xeyirxahlıq, insanlıq diplomatiyasını heç bir şey əvəz edə bilməz və mən buna görə sizə bir daha öz dərin minnətdarlığımı bildirirəm.

Hörmətli xanımlar, qoy bu bahar sizin üçün nurlu olsun, sizə xoşbəxtlik gətirsin. Mən sizə hədsiz xoşbəxtlik, cansağlığı, təmsil etdiyiniz ölkələrə və xalqlara əmin-amanlıq, sülh arzulayıram.

Çox sağ olun və bir daha xoş gəlmisiniz.

❖❖❖

Görüşdə Moldovanın Azərbaycandakı səfirinin xanımı Alla LEUKA "HOMS Qrupu" kimi tanınan diplomatik missiya rəhbərlərinin həyat yoldaşları adından çıxış etməyin onun üçün şərəf olduğunu deyərək Birinci vitse-prezident Mehriban Əliyeva ilə görüşə, "HOMS"un fəaliyyətinə verdiyi dəyərə və Novruz bayramı münasibətilə təbriklərinə görə təşəkkürünü bildirdi. Azərbaycanda çox sayda Novruz tədbirlərində iştirak etdiklərini, Novruzun sərhədləri aşaraq insanları birləşdirdiyini, bizə oxşar cəhətlərimizi və müxtəlifliyimizin zənginliyini xatırladığını, hörmət, sülh və mehriban qonşuluğa əsaslanaraq xalqlar arasında əlaqələri gücləndirdiyini vurğuladı. Qeyd etdi ki, o, Novruz ruhunu Azərbaycanda bütün ilboyu hiss edir.

"Beynəlxalq ictimaiyyətin üzvləri olaraq biz ev sahibi olan ölkənin cəmiyyətinin açıqlığı, dostluğu, qonaqpərvərliyini hər zaman hiss edirik. Azərbaycan xalqı istiqanlı və səxavətlidir. Biz zəngin tarixə və mədəniyyətə, güclü harmoniya, birgəyaşayış və tolerantlıq ruhuna malik olan, dinamik inkişaf edən və gələcəyə inamla baxan bu gözəl ölkədə olmaqdan xoşbəxtik", - deyən Alla Leuka təmsil etdikləri "HOMS" təşkilatının gördüyü işlərdən danışdı, humanitar sahədə fəaliyyətlərini davam etdirəcəklərini vurğuladı. Bildirdi ki, bu cür görüşlər beynəlxalq ictimaiyyətlə ev sahibi olan ölkənin rəhbərliyi və xalqı arasında əlaqələri gücləndirməyin daha bir yoludur. Alla Leuka Novruz bayramı münasibətilə bir daha təbriklərini çatdırdı, bütün insanlara dostluq və firavan həyat arzuladı.

❖❖❖

Sonda xatirə şəkli çəkdirildi.

❖❖❖

Qeyd edək ki, bu gün ölkəmizdə həyata keçirilən uğurlu xarici siyasət kursunun fonunda Azərbaycanın beynəlxalq münasibətlər sistemində mövqeyi getdikcə güclənməkdədir. Azərbaycan xarici siyasətdə dostluq və qarşılıqlı etimad prinsiplərinə söykənir. Buna görə də ölkəmiz beynəlxalq miqyasda ikitərəfli və çoxtərəfli münasibətlər kontekstində etibarlı strateji tərəfdaşlardan birinə çevrilib. Bunun nəticəsidir ki, Azərbaycanla daha çox ölkə əməkdaşlıq etmək arzusundadır. Həmin faktı Azərbaycanda fəaliyyət göstərən xarici ölkələrin diplomatik missiyalarının sayı bir daha təsdiq edir.

# Azərbaycan təhlükəsizlik orqanlarının yaranmasının 100 illiyi münasibətilə təntənəli tədbir keçirilib

Azərbaycan təhlükəsizlik orqanlarının yaranmasının 100 illiyi, dövlət təhlükəsizliyi və xarici kəşfiyyat orqanları əməkdaşlarının peşə bayramı münasibətilə martın 28-də "Buta" sarayında təntənəli tədbir keçirilib.







Dövlət Təhlükəsizliyi Xidmətinin ictimai əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, tədbirdə Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri Ramiz Mehdiyev, Azərbaycan Respublikası Prezidentinin hüquq mühafizə orqanları ilə iş və hərbi məsələlər üzrə köməkçisi-şöbə müdiri Fuad Ələsgərov, hökumət nümayəndələri, hüquq mühafizə orqanlarının rəhbərləri, Azərbaycanın milli qəhrəmanları, təhlükəsizlik orqanlarının veteranları, həmçinin 40 xarici xüsusi xidmət orqanının 160 rəhbər və təmsilçisi iştirak edib.

Yubiley tədbiri Azərbaycan Dövlət Xor Kapellasının ifasında Dövlət himninin səsləndirilməsi ilə başlayıb.

Azərbaycan Respublikası Prezidentinin hüquq mühafizə orqanları ilə iş və hərbi məsələlər üzrə köməkçisi-şöbə müdiri Fuad Ələsgərov təntənəli tədbirin iştirakçılarını salamlayıb və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Dövlət Təhlükəsizliyi və Xarici Kəşfiyyat xidmətlərinin şəxsi heyətlərinə təbrikini oxuyub.

Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi, Azərbaycanın Milli Qəhrəmanı, general-polkovnik Mədət Quliyev çıxış edərək təntənəli tədbirin iştirakçılarına, o cümlədən yubiley ilə əlaqədar Bakıya qonaq gələn tərəfdaş ölkələrin xüsusi xidmət orqanlarının rəhbərlərinə və nümayəndə heyətlərinə təşəkkürünü bildirib.

General-polkovnik Mədət Quliyev qeyd edib ki, ölkəmizin heyrətamiz tərəqqisi, mövcud sabitlik və təhlükəsizlik müasir müstəqil Azərbaycanın banisi və qurucusu ulu öndər Heydər Əliyev tərəfindən təməli qoyulan, Prezident İlham Əliyevin müdrik rəhbərliyi ilə uğurla davam etdirilən siyasətin məntiqi parlaq nəticəsidir. Dövlət başçısının düşünülmüş və uzaqgörən siyasəti sayəsində Azərbaycan bu gün təhlükəsizlik baxımından dünyanın qabaqcıl dövlətləri ilə bir sırada dayanır. Azərbaycanın formalaşmış güclü təhlükəsizlik strategiyası ölkəyə etibarlı tərəfdaş və öz maraqlarını qorumağa qadir dövlət imici qazandırır. Dinamik inkişaf yolunda olan ölkəmizdə dilindən, dinindən, milliyyətindən, əqidəsindən asılı olmayaraq, bütün insanlar sülh və əmin-amanlıq şəraitində yaşayır və çalışır. Bu, Azərbaycan xalqının və dövlətinin böyük nailiyyətidir.

General-polkovnik Mədət Quliyev Dövlət Təhlükəsizliyi Xidmətinin beynəlxalq əməkdaşlıq əlaqələrinin son illər daha fəal və səmərəli xarakter aldığını vurğulayıb. Bildirib ki, hazırda DTX dünyanın 70-dən artıq xüsusi xidmət orqanı ilə, eləcə də nüfuzlu beynəlxalq təşkilatlar çərçivəsində ikitərəfli və çoxtərəfli formatda qarşılıqlı faydalı əməkdaşlıq edir. Tərəfdaşlıq yalnız informasiya və təcrübə mübadiləsi ilə deyil, bir çox hallarda birgə fəaliyyət və əməli kömək şəklində həyata keçirilir. Qürurverici haldır ki, dünyanın təhlükəsizlik sisteminin formalaşmasında Azərbaycanın da əməyi var.

Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi, general-polkovnik Mədət Quliyev yubiley ərəfəsində Prezident İlham Əliyevin sərəncamları ilə bir qrup əməkdaşın dövlət mükafatlarına və ali zabit rütbələrinə layiq görülməsini Dövlət Təhlükəsizliyi Xidmətinin fəaliyyətinə növbəti dəfə verilən yüksək qiymətin bariz nümunəsi olduğunu qeyd edib. Xidmət rəisi göstərilən diqqət və qayğıya, həmçinin Azərbaycan təhlükəsizlik orqanlarının 100 illiyinin və bu orqanların əməkdaşlarının peşə bayramının yüksək səviyyədə keçirilməsinə şərait yaratdığına görə Ali Baş Komandana şəxsi heyətin adından dərin minnətdarlığını bildirib.

Xarici Kəşfiyyat Xidmətinin rəisi, general-leytenant Orxan Sultanov çıxışında Azərbaycan təhlükəsizlik orqanlarının təşəkkül tarixindən danışıb, Prezident İlham Əliyevin yürütdüyü məqsədyönlü xarici siyasət nəticəsində ölkəmizin beynəlxalq nüfuzunun və mövqelərinin gündən-günə daha da möhkəmləndiyini xüsusi qeyd edib. General-leytenant Orxan Sultanov göstərilən diqqət və qayğıya görə dövlət başçısı İlham Əliyevə Xarici Kəşfiyyat Xidmətinin şəxsi heyəti adından təşəkkürünü bildirib.

Təntənəli tədbir Qara Qarayev adına Azərbaycan Dövlət Kamera Orkestrinin, Dövlət Rəqs Ansamblının, "Qaya" dövlət vokal ansamblının, eləcə də respublikanın tanınmış incəsənət xadimlərinin ifasında bədii proqramla davam edib.

# Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin ilk layihəsi - Yasamal Yaşayış Kompleksində mənzillərin güzəştlə satışı barədə ELAN

MİDA

Bakı şəhəri, Yasamal rayonu, Xarici dairəvi yolu, 8 ünvanında yerləşən Yasamal Yaşayış Kompleksinin 6-7 saylı binaları üzrə 22 mənzil, həmçinin 8 və 9 saylı binalarında yerləşən 132 mənzilin, ümumilikdə 154 mənzilin satışı 29 aprel 2019-cu il tarixində saat 11:00-da başlayacaq və 30 aprel 2019-cu il tarixi saat 23:59-dək davam edəcəkdir.

Azərbaycan Respublikası Prezidentinin 16 noyabr 2016-cı il tarixli 1113 nömrəli Fərmanına əsasən Mənzil İnşaatı Dövlət Agentliyinin sərəncamında olan mənzillərin əldə edilməsi "Elektron hökumət" portalı üzərindən (www.e-gov.az) "Güzəştli mənzil" sistemi vasitəsilə elektron qaydada həyata keçirilir.

Yalnız "Güzəştli mənzil" sistemində elektron kabinetə sahib olmuş vətəndaşlar mənzil almaq hüququna malikdir. Elektron kabinetə sahib olmuş bütün vətəndaşlar qeydiyyat tarixindən və sıra nömrəsindən asılı olmayaraq, mənzillərin seçimində bərabər hüquqa malikdir. Həmin şəxslər elektron kabinetlərində "Satış/Mənzillər" bölməsinə daxil olaraq "erkən gələnə erkən xidmət" prinsipi (satış başladığı anda sistemə daxil olaraq mənzili ilk seçən şəxslər onu almaq imkanı əldə edir) əsasında mənzilləri seçə biləcəklər. "Güzəştli mənzil" sistemindən istifadə qaydası ilə bağlı ətraflı məlumatla, o cümlədən mətn və video formatlı təlimatlarla www.mida.gov.az və www.mida.az internet saytlarının ana səhifələrində "Güzəştli mənzil sistemi" keçidi vasitəsilə tanış olmaq mümkündür.

## Satışa çıxarılan mənzillər barədə ümumi məlumat:

Satışa ümumilikdə 154 mənzil çıxarılır. Bütün mənzillər tam təmirli, mətbəx mebeli, kombi isitmə sistemi (kombi cihazı daxil olmaqla), su, qaz və elektrik sayğacları ilə təmin edilmiş vəziyyətdə təklif olunur.

Bütün binalar Azərbaycan Respublikasının Dövlət Tikinti Normalarına (AzDTN) uyğun layihələndirilib və inşa olunub. Bununla bağlı Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyinin Təsisatdankənar Dövlət Ekspertiza Baş İdarəsinin 15.11.2016-cı il tarixli 22880 nömrəli və 27.12.2016-cı il tarixli 23089 nömrəli müsbət rəyləri mövcuddur.

**Mənzillərə dair Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsinin yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin Bakı şəhər ərazi idarəsi tərəfindən mülkiyyət hüquqlarının qabaqcadan qeydiyyatı barədə arayışlar verilmişdir.**

| Bina № | Binanın yerləşdiyi torpaq sahəsi (m²) | Binada mərtəbə sayı | Binaya giriş sayı | Mənzillərin otaqlarının sayı | Mənzillərin sayı | Mənzillərin daxili perimetr üzrə sahəsi (m²) | Mənzillərin xarici perimetr üzrə sahəsi (m²) | Baş podratçı / ünvanı | Tikinti-quraşdırma və təmir işlərinin başaçatma tarixi |
|---|---|---|---|---|---|---|---|---|---|
| 6 | 687.45 | 9 | 2 | 1 | 5 | 33,10 - 33,37 | 40,52 | "Hünər-İnşaat" / Bakı şəhəri, Xətai rayonu, Gəncə prospekti, ev 97, mənzil 63. | 1 sentyabr 2018-ci il |
| | | | | 2 | 3 | 55,03 | 66,92 | | |
| | | | | 3 | 1 | 69,56 | 81,64 | | |
| 7 | 665.36 | 9 | 2 | 1 | 2 | 33,37 | 40,52 | | |
| | | | | 2 | 6 | 54,65 - 55,03 | 66,92 | | |
| | | | | 3 | 5 | 69,56 - 69,93 | 81,64 | | |
| 8 | 645.25 | 9 | 2 | 1 | 9 | 33,10 - 33,37 | 40,52 | | |
| | | | | 2 | 54 | 49,77 - 55,02 | 60,10-66,91 | | |
| | | | | 3 | 9 | 69,08 - 69,68 | 84,47 | | |
| 9 | 441.56 | 12 | 1 | 1 | 12 | 31,50 - 33,01 | 40,12 | | |
| | | | | 2 | 24 | 56,85 - 57,87 | 70,44 | | |
| | | | | 3 | 24 | 69,80 - 70,46 | 84,47 | | |

## Satış şərtləri və qiymətlər:

Azərbaycan Respublikası Prezidentinin 16.11.2016-cı il tarixli 1113 nömrəli Fərmanı ilə təsdiq edilmiş Qaydanın 1.2.10-cu yarımbəndi və 3.2-ci bəndinə əsasən vətəndaşlara güzəştli şərtlərlə təklif olunan mənzillərin satış qiyməti Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondu tərəfindən təyin edilmiş orta bazar qiymətindən aşağı müəyyən olunmuşdur.

1 otaqlı mənzillərin qiyməti – **29 925** manatdan,

2 otaqlı mənzillərin qiyməti – **47 282** manatdan,

3 otaqlı mənzillərin qiyməti – **65 626** manatdan başlayır.

***Qeyd: Mənzillərin satış qiymətinə ƏDV daxildir.***

Vətəndaş mənzili Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondunun güzəştli ipoteka krediti vəsaiti hesabına aldıqda:

| İllik faiz dərəcəsi | Müddət | Minimal ilkin ödəniş | Aylıq ödəniş* | | |
|---|---|---|---|---|---|
| | | | *1 otaqlı* | *2 otaqlı* | *3 otaqlı* |
| 4% | 3-30 il | 10% | **129-136 manat** | **203-236 manat** | **282-288 manat** |

* Aylıq ödəniş – mənzil 10% ilkin ödəniş edilərək, 4% dərəcəsi ilə 30 il müddətinə güzəştli ipoteka krediti ilə alındıqda.

**DİQQƏT! Mənzilə güzəştli ipoteka krediti vasitəsilə sahib olmaq istəyən vətəndaş minimal ilkin ödənişdən artıq ödənilən məbləğə görə, mənzilin satış qiymətini tam həcmdə öz vəsaiti hesabına birdəfəlik ödəyən vətəndaş isə bütün məbləğə əlavə 10% endirim əldə edəcək.**

**Mənzilə öz vəsaiti hesabına birdəfəlik ödəniş edərək sahib olmaq istəyən vətəndaş üçün mənzillərin satışı aşağıdakı qiymətlərdən başlayır:**

| Otaqların sayı | Mənzilin qiyməti (manat) | Əlavə endirim məbləği (manat) | Əlavə endirimdən sonra mənzilin satış qiyməti (manat) |
|---|---|---|---|
| 1 | 29 925 | **2 993** | **26 932** |
| 2 | 47 282 | **4 728** | **42 554** |
| 3 | 65 626 | **6 563** | **59 063** |

***Qeyd: Mənzillərin satış qiymətinə ƏDV daxildir.***

Yasamal Yaşayış Kompleksinin www.yasamal.mida.az internet səhifəsinə daxil olaraq satışa çıxarılan hər bir mənzilin (və otaqlarının) dəqiq ölçüsü, qiyməti, tətbiq edilən güzəştlər və əlavə endirimlər, agent banklar haqqında məlumatla tanış olmaq, habelə ipoteka və güzəştli mənzil kalkulyatorları vasitəsilə müvafiq hesablamalar aparmaq mümkündür.

Güzəştlə mənzil əldə etmək hüququ olan şəxslər, mənzili güzəştlə əldə etmək üçün ərizənin təqdim olunması qaydası, mənzillərin satış şərtləri, agent banklar barədə ətraflı məlumatla **www.mida.gov.az** və **www.mida.az** internet səhifələrində və ya müvafiq "ASAN xidmət" mərkəzlərinə (1, 3, 5 saylı və Sumqayıt), habelə "108" çağrı mərkəzinə müraciət edərək tanış olmaq mümkündür.

***Qeyd: "Güzəştli mənzil" sisteminin istifadəçiləri satış modulunun təlimatı ilə öz elektron kabinetlərinin müvafiq bölməsində və ya www.mida.gov.az və www.mida.az internet saytlarının ana səhifələrində "Güzəştli mənzil sistemi" keçidi vasitəsilə tanış ola bilərlər.***

# Prezident İlham Əliyevin tapşırığına əsasən mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşları qəbul ediblər

Baş prokuror Zakir Qaralov martın 29-da Biləsuvar Rayon Prokurorluğunun inzibati binasında Biləsuvar, İmişli, Cəlilabad, Neftçala və Cəbrayıl rayonlarından olan vətəndaşları qəbul edib.

Baş Prokurorluğun məsul əməkdaşlarının, habelə əlaqədar tabe prokurorların iştirakı ilə keçirilən qəbulda Zakir Qaralov bölgədə yaşayan 34 vətəndaşın müraciətini dinləyərək, qaldırılan məsələlərin qanunauyğun və operativ şəkildə həll edilməsi üçün Baş Prokurorluğun əlaqədar struktur qurumlarının rəhbərlərinə və tabe rayon prokurorlarına müvafiq göstərişlər verib.

Vətəndaşların müraciətlərinin bir qismi yerindəcə həllini tapıb. Digər müraciətlər isə araşdırılması üçün nəzarətə götürülüb.

Bölgə sakinlərinin yerlərdə qəbulu və müraciətlərinə baxılması üçün rahat və əlverişli şərait yaradılmasından razılıqlarını ifadə edən vətəndaşlar göstərilən diqqət və qayğıya görə dövlətimizin başçısına minnətdarlıqlarını bildiriblər.

* * *

Azərbaycan Respublikasının gənclər və idman naziri Azad Rəhimov martın 29-da Mingəçevir şəhərindəki Heydər Əliyev Mərkəzində Mingəçevir, Yevlax, Ağdaş, Ağsu, Bərdə, Göyçay, Kürdəmir, Tərtər, Ucar, Zərdab şəhər və rayonlarından olan vətəndaşları qəbul edib.

Gənclər və İdman Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, ümumilikdə 26-dan çox vətəndaşın iştirak etdiyi qəbulda müraciətlərin böyük hissəsi gənclər, idman sahəsi ilə bağlı olub. Digər müraciətlər Gənclər evi, Olimpiya İdman kompleksləri, eyni zamanda, idman qurğularının tikintisi və təmiri, idman avadanlığının verilməsi, ipoteka krediti, məşğulluq və sair məsələləri əhatə edib.

Bir sıra müraciətlər yerindəcə həllini tapıb. Nazirliyin səlahiyyətlərinə aid olmayanların isə qeydə alınaraq aidiyyəti üzrə göndəriləcəyi bildirilib. Müraciətlərin bir qismi isə baxılması üçün icraya yönəldilib.

* * *

Martın 29-da Əmlak Məsələləri Dövlət Komitəsinin (ƏMDK) sədri Kərəm Həsənov İmişli şəhərində vətəndaş qəbulu keçirib.

Qəbulda İmişli rayonu ilə yanaşı, Beyləqan, Ağcabədi, Füzuli rayonlarından olan vətəndaşların müraciətlərinə baxılıb. Komitənin müvafiq qurumlarının rəhbərlərinin də iştirak etdiyi qəbulda vətəndaşların müraciətlərinə əsasən, daşınmaz əmlakların qeydiyyata alınması, torpaqların təyinatına və faktiki vəziyyətinə uyğun istifadəsi, dövlət əmlaklarının özəlləşdirilməsi ilə bağlı olub. Həmçinin hərraclarda iştirak, torpaqların elektron kadastr uçotu, dövlət əmlakının icarəyə götürülməsi ilə bağlı müraciətlər də səsləndirilib.

Vətəndaşların fərdi müraciətlərini diqqətlə dinləyən komitə sədri bütün məsələlərin qanunvericiliyə uyğun həlli istiqamətində tapşırıqlarını verib. Bəzi müraciətlər dərhal həll edilib. Araşdırılma tələb edən müraciətlər nəzarətə götürülüb və onların həlli istiqamətində struktur bölmələrin rəhbərlərinə müvafiq göstərişlər verilib. Komitənin fəaliyyət istiqamətlərinə aid olmayan məsələlər isə aidiyyəti üzrə göndərilməsi üçün qeydiyyata alınıb.

Bildirilib ki, birbaşa vətəndaşların iştirakı ilə məsələlərin həlli təmin ediləcək.

# UNESCO-nun baş qərargahında "Bakı Prosesi" beynəlxalq işçi qrupunun iclası keçirilib

UNESCO baş qərargahında Azərbaycanın mədəniyyət naziri Əbülfəs Qarayevin sədrliyi ilə "Bakı Prosesi" beynəlxalq işçi qrupunun iclası keçirilib.

Nazirlikdən AZƏRTAC-a bildirilib ki, UNESCO Katibliyinin, BMT-nin Sivilizasiyalar Alyansı, Avropa Şurası, ISESCO-nun rəsmiləri və işçi qrupunun digər üzvlərinin iştirakı ilə keçirilən iclasda V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun proqramı və konsepsiya sənədləri müzakirə edilib.

Əbülfəs Qarayev qeyd edib ki, "Bakı Prosesi" Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə 2008-ci ildən həyata keçirilir və bu proses çərçivəsində son 10 ildə 4 dəfə Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu, 6 dəfə Bakı Beynəlxalq Humanitar Forum, Nazirlər Konfransları və digər beynəlxalq tədbirlər təşkil edilib. Bu proses BMT-nin baş katibi tərəfindən təşkilatın əsas platforması kimi elan edilib və bu baxımdan "Bakı Prosesi" və Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu qlobal xarakter alıb.

UNESCO-nun rəsmisi, təşkilatın Mədəniyyətlərarası dialoq və tərəfdaşlıq departamentinin rəhbəri Maqnus Maqnusson təmsil etdiyi qurumun bu prosesin həyata keçirilməsində fəal iştirak etdiyini, bu prosesin əsas tərəfdaşlarından biri olduğunu və budəfəki forum çərçivəsində UNESCO tərəfindən 5 tədbirin təşkil ediləcəyini qeyd edib.

BMT-nin Sivilizasiyalar Alyansı, ISESCO, Avropa Şurasının rəsmiləri və forumun ekspertlər qrupunun üzvü, Böyük Britaniyanın Koventri Universitetinin professoru Mayk Hardi forumun proqramı ilə bağlı fikirlərini səsləndiriblər və qərara alınıb ki, proqram üzrə müzakirə mövzuları, plenar sessiyalar barədə son təkliflər aprelin 5-dək təqdim edilsin. Qeyd olunub ki, budəfəki forum diskriminasiya, qeyri-bərabərlik və münaqişələrin qarşısının alınmasında dialoqun gücləndirilməsi mövzularını əhatə edəcək və bu çərçivədə mədəni müxtəlifliyin çoxtərəfli idarə olunması, gənclərin liderliyi və onların bu proseslərdə rolu, eyni zamanda, miqrasiya və insan təhlükəsizliyi məsələləri xüsusi əhəmiyyət kəsb edəcəkdir. Forum çərçivəsində, həmçinin Beynəlxalq Təşkilatların Rəhbərlərinin II Toplantısı və Nazirlər Konfransı da keçiriləcəkdir.

Sonda nazir Əbülfəs Qarayev 2017-ci ildə keçirilən IV Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun yekunlarını xatırladaraq növbəti forumun prosesin davamı olaraq xüsusi yeniliklərlə yadda qalacağını və forumun yekununda Fəaliyyət Planının qəbul ediləcəyini bildirib.

# Mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin 2019-cu ilin aprel ayında şəhər və rayonlarda vətəndaşların qəbulu

## CƏDVƏLİ

| Mərkəzi icra hakimiyyəti orqanı | Qəbul günü | Qəbulun keçirildiyi şəhər | Əhatə olunan şəhər və rayonlar |
|---|---|---|---|
| **Ramin Quluzadə**<br>**nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri** | 05 | Şabran | Şabran, Xaçmaz, Quba, Qusar |
| **Hicran Hüseynova**<br>**Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri** | 05 | Şirvan | Şirvan, Hacıqabul, Salyan, Neftçala |
| **Vüqar Əhmədov**<br>**"Azərişıq" ASC-nin sədri vəzifəsini icra edən** | 10 | İmişli | İmişli, Beyləqan, Saatlı, Sabirabad |
| **Ceyhun Bayramov**<br>**təhsil naziri** | 11 | Samux | Samux, Gəncə, Göygöl, Kəlbəcər |
| **Əkbər Hacıyev**<br>**ARDNŞ-in "Azəriqaz" İstehsalat Birliyinin baş direktoru** | 11 | Xaçmaz | Xaçmaz, Şabran, Siyəzən, Xızı |
| **Fikrət Məmmədov**<br>**ədliyyə naziri** | 12 | Bərdə | Bərdə, Tərtər, Ağdam |
| **Sahil Babayev**<br>**əmək və əhalinin sosial müdafiəsi naziri** | 12 | Qəbələ | Qəbələ, Şəki, Oğuz |
| **Kəmaləddin Heydərov**<br>**fövqəladə hallar naziri** | 12 | Quba | Quba, Xaçmaz, Qusar, Şabran, Siyəzən |
| **Qorxmaz Hüseynov**<br>**"Azərsu" ASC-nin sədri** | 16 | Şamaxı | Şamaxı, Ağsu, İsmayıllı, Qobustan |
| **Arzu Rəhimov**<br>**Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi** | 17 | Şamaxı | Şamaxı, Ağsu, İsmayıllı, Qobustan |
| **Zakir Qaralov**<br>**Baş prokuror** | 19 | Ucar | Ucar, Zərdab, Ağdaş |
| **Azad Rəhimov**<br>**gənclər və idman naziri** | 19 | Biləsuvar | Biləsuvar, İmişli, Beyləqan, Ağcabədi |
| **Şahin Mustafayev**<br>**iqtisadiyyat naziri** | 19 | Yardımlı | Yardımlı, Masallı, Cəlilabad |
| **İnam Kərimov**<br>**kənd təsərrüfatı naziri** | 19 | Zaqatala | Zaqatala, Qax, Balakən |
| **Mikayıl Cabbarov**<br>**vergilər naziri** | 19 | Yevlax | Yevlax, Bərdə, Tərtər, Ağdam |
| **Saleh Məmmədov**<br>**Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin idarə heyətinin sədri** | 19 | Cəbrayıl (Cocuq Mərcanlı) | Cəbrayıl (Cocuq Mərcanlı), Füzuli, Xocavənd |
| **Məleykə Abbaszadə**<br>**Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədri** | 19 | Qəbələ | Qəbələ, İsmayıllı, Şamaxı, Qobustan |
| **Mübariz Qurbanlı**<br>**Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri** | 24 | Ağcabədi | Ağcabədi, Tərtər, Ağdam, Laçın |
| **Əhməd Əhmədzadə**<br>**Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin sədri** | 24 | Bərdə | Bərdə, Yevlax, Ağdam, Tərtər |
| **Muxtar Babayev**<br>**ekologiya və təbii sərvətlər naziri** | 26 | Ağcabədi | Ağcabədi, Bərdə, Ağdam, Tərtər |
| **Pərviz Şahbazov**<br>**energetika naziri** | 26 | Şirvan | Şirvan, Hacıqabul, Salyan, Neftçala |
| **Əbülfəs Qarayev**<br>**mədəniyyət naziri** | 26 | Lənkəran | Lənkəran, Astara, Lerik |
| **Oqtay Şirəliyev**<br>**səhiyyə naziri** | 26 | Şəki | Şəki, Qax, Zaqatala, Balakən, Oğuz |
| **Kərəm Həsənov**<br>**Əmlak Məsələləri Dövlət Komitəsinin sədri** | 26 | Kürdəmir | Kürdəmir, Ucar, Göyçay |
| **Rövşən Rzayev**<br>**Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri** | 26 | İsmayıllı | İsmayıllı, Ağsu, Ağdaş, Kürdəmir |
| **Ramil Usubov**<br>**daxili işlər naziri** | 27 | Göyçay | Göyçay, Mingəçevir, Yevlax, Ucar, Kürdəmir, Ağdaş, Ağsu, Şamaxı, İsmayıllı |
| **Səfər Mehdiyev**<br>**Dövlət Gömrük Komitəsinin sədri** | 27 | Qazax | Qazax, Ağstafa, Tovuz |

**Qeyd: Vətəndaşların qaldırdıqları məsələlər qəbulu keçirən mərkəzi icra hakimiyyəti orqanının səlahiyyətlərinə aid olmalıdır**

# MADE IN AZERBAIJAN

## "Ağdam" şərabı, "Şuşa" konyakı Ukrayna bazarlarında

**Ukrayna bazarlarında Azərbaycana məxsus şərab məhsullarının çeşidi genişləndirilir. Bu barədə Ukraynada fəaliyyət göstərən "Tovuz-Vino" şirkətinin rəhbəri Elimxan Mahmudov məlumat verib.**



Yaxın vaxtlarda Azərbaycanın daha bir "Qarabağ" brendli şərabı Ukrayna bazarında satışa çıxarılacaq. Artıq Ukrayna bazarlarında Azərbaycanın əfsanəvi "Ağdam" şərabı, "Şuşa" konyakı satışdadır. Azərbaycana məxsus 50-yə yaxın adda şərab və spirtli içki məhsulları Ukraynanın iri ticarət obyektlərində satışa çıxarılıb.

## Moskvada "Azərbaycan nemətləri" mağazası açılıb

**Moskvadakı "DEPO" qastromarketinin ərazisində "Azərbaycan nemətləri" mağazası açılıb. Açılış mərasimində çıxış edən Azərbaycanın Rusiyadakı ticarət nümayəndəsi Ruslan Əliyev bildirib ki, Moskvada daha 3 belə mağazanın açılması planlaşdırılır. Mağazaların açılması bu ölkədə Azərbaycanın ticarət evləri sisteminin şaxələnməsində böyük addım olacaq.**




Ticarət nümayəndəsinin sözlərinə görə, mağazaların formatı bu və ya digər məhsula görə ixtisaslaşan kiçik mağazalardan tutmuş şərab, sənaye məhsulları mağazalarınadək müxtəlif cür ola bilər. Yaxın vaxtlarda isə Moskvadakı "Foot City" Ərzaq Mərkəzində, "Doroqomilov" bazarında və Leninqrad prospektində böyük "Azərbaycan nemətləri" mağazalarının açılması planlaşdırılır.

Bundan əlavə, apreldə Yekaterinburqda "Azərbaycan nemətləri" brendi ilə ixtisaslaşdırılmış şərab mağazasının açılması planlaşdırılır. Sankt-Peterburqlu sahibkarlarla danışıqlar aparılır: "Azərbaycan nemətləri" brendi ilə konseptual mağazaların açılması gözlənilir. Belə mağazaların ticarət nümayəndəliyi vasitəsilə, Azərbaycan dövlətinin dəstəyi və sahibkarların öz gücü ilə açılması planlaşdırılır. Biz isə məhsulun Azərbaycandan daşınmasına, marketinq və qiymət siyasəti formalaşdırmağa, belə mağazalar vasitəsilə məhsulun satışına kömək edəcəyik".

## Qubada yem emalı müəssisələri istifadəyə verilib

**Quba rayonunun Talabıqışlaq, Qəçrəş və Zərdabi kəndlərində Azərbaycan hökuməti və ABŞ-ın Beynəlxalq İnkişaf Agentliyi tərəfindən birgə həyata keçirilən "Sosial-iqtisadi inkişaf fəaliyyəti" (SEDA) layihəsi çərçivəsində yem emalı müəssisələri fəaliyyətə başlayıb.**



Azərbaycan hökuməti və ABŞ-ın Beynəlxalq İnkişaf Agentliyinin birgə maliyyələşdirdiyi layihə çərçivəsində tikilən müəssisələrdə yem emalı üçün istehsal sahəsi və anbar inşa olunub, hər birinin gücü saatda 2 ton olan toxum təmizləyən, yem üyüdən və ot doğrayan avadanlıqlar quraşdırılıb, yeni iş yerləri açılıb.

Regionlarda icma əsaslı biznesyönümlü layihələrin icrası, o cümlədən Quba rayonunun Talabıqışlaq, Qəçrəş və Zərdabi kəndlərində yem emalı müəssisələrinin istifadəyə verilməsi bölgədə aqrar sektorun inkişafı və məşğulluğun artırılmasına töhfə verir. Yem emalı müəssisələrinin istifadəyə verilməsi 3 kəndin sakinlərinin heyvandarlıq və bitkiçilik sahəsində fəaliyyətinin genişlənməsinə və yemə olan tələbatın ödənilməsinə şərait yaradacaq.

## Gəncə Alüminium Zavodu İtaliyaya məhsul ixrac edəcək

**Bu ildən başlayaraq Gəncə Alüminium Zavodunun məhsulları yaxın aylarda İtaliyaya ixrac ediləcək. Hazırda zavodun məhsulları demək olar ki, tamamilə ixraca yönəlib.**



Bu gün şirkətin məhsulları bir sıra Avropa və keçmiş Sovet İttifaqı ölkələrinə ixrac edilir. Gəncə Alüminium Zavodu ixrac mallarının davamlılığını təmin etmək məqsədilə istehsal həcmini artırmağı planlaşdırır. Bu il şirkət istehsal həcmini 52,447 min tona qədər artırmağı planlaşdırır. Ötən ilin eyni dövründə bu göstərici 51,967 min ton olub.

## Azərbaycan Gürcüstanın bir nömrəli investorudur

**Azərbaycan ötən il Gürcüstan iqtisadiyyatına 240 milyon dollar investisiya yatırıb. Bununla da ölkəmiz "Gürcüstanın bir nömrəli investoru" adını qoruyub saxlayıb. Bu barədə Gürcüstan Milli Statistika İdarəsinin ilkin hesabatında deyilir.**



Bildirilir ki, Gürcüstan iqtisadiyyatına yatırılmış investisiyalarda Azərbaycanın payı 19,5 faiz olub. Bu 2017-ci illə müqayisədə 1,9 dəfə az olsa da, Azərbaycan liderliyini qoruyub saxlayıb.

Gürcüstan iqtisadiyyatına ən çox sərmayə qoyan ölkələr sırasında Böyük Britaniya 203,7 milyon dollarla ikinci, Niderland isə 167,9 milyon dollarla üçüncü yerdədir.

Ən çox sərmayə maliyyə (279,9 milyon dollar), nəqliyyat (209,9 milyon dollar) və energetika (157,2 milyon dollar) sektorlarına yatırılıb.

◆ Müəllifi İlham Əliyevdir



## Yüksək xidmət, vaxta qənaət, təhlükəsizliyə zəmanət

### Abşeron Logistika Mərkəzi Azərbaycan logistikasının inkişafında lokomotiv rolunu oynamaqdadır

**Qeyri-neft sektorunun inkişafı üzrə prioritet sahələrdən biri kimi logistika iqtisadiyyatın bütün digər sektorlarının bir-biri ilə əlaqələndirilməsində mühüm amil kimi çıxış edərək, bu sektorların irəliləməsində təkanverici qüvvə rolunu oynayır.**

Regionda əhəmiyyətli logistika və ticarət qovşağına çevrilmək məqsədilə ölkənin strateji coğrafi mövqeyindən səmərəli istifadə edilməklə, tranzit yüklərin ölkə ərazisindən keçən nəqliyyat dəhlizlərinə cəlb olunması, bölgələrdə logistika və ticarət mərkəzlərinin yaradılması, həmçinin ölkənin cəlbediciliyinin artırılması qarşıya qoyulan əsas məqsəddir.

### Qafqazın logistik inkişafına töhfə verəcək mərkəz

Bu gün Azərbaycan iki əsas ticarət marşrutu - Şimal-Cənub, Şərq-Qərb üzərindəki əlverişli mövqeyindən istifadə etməklə mühüm regional əhəmiyyətli logistika və ticarət qovşağına çevrilməkdədir. Prezident İlham Əliyevin yeni iqtisadi strategiyasına uyğun olaraq ölkədə yeni-yeni logistik mərkəzlər tikilməkdədir. Onlardan biri də ötən ildən Qaradağ rayonunun Lökbatan qəsəbəsində fəaliyyətə başlayan Abşeron Logistika Mərkəzidir.

2018-ci il avqustun 13-də dövlət başçısının açılışını etdiyi mərkəzin inşasına 2017-ci ilin aprelində başlanılmışdı. Tarixi İpək yolunun üzərində yerləşən Abşeron Logistika Mərkəzinin sutkalıq yükaşırma gücü 30 min ton təşkil edir ki, bu da ildə təqribən 11 milyon ton yükə bərabərdir. Logistika mərkəzi bütün xidmətləri təklif etməklə vaxta qənaəti və xərclərin azaldılmasını təmin edir.

Müəssisə ilk mərhələdə 28 hektar ərazidə dəmir və avtomobil yollarının qarşılıqlı əlaqəsini təmin edərək logistika xidməti göstərməyə başlayıb. İkinci mərhələdə isə 35 hektar ərazi üçün layihə hazırlanıb.

### "Vahid pəncərə" sistemi ilə ixrac və idxal əməliyyatları aparılır

Logistika mərkəzi həm də vahid gömrük məntəqəsi kimi qəbul olunub. İdxal, ixrac və tranzit gömrük əməliyyatları ərazidə yerləşən gömrük orqanları tərəfindən həyata keçirilir. Əlbəttə ki, logistik xidmət tərəfdaşlarının əməkdaşlığı məhsuldarlığı və səmərəliliyi daha da artıracaq.

Mərkəzin yaradılmasında əsas məqsəd ən müasir üsullarla müştərilərin istəklərini həyata keçirməkdir. Bunun üçün bütün xidmətlər "vahid pəncərə" sistemi ilə bir nöqtədən təmin olunur. Müəssisədə ümumilikdə 350 nəfər işlə təmin edilib.

Mərkəzdə, həmçinin 2400 konteyner tutumu olan terminal, tutumu 21 min ton olan iriölçülü yük terminalı, 8100 kvadratmetrlik qapalı anbar sahəsi, açıq yük platforması və ən müasir texnikalar xidmət göstərir. Yük maşınları üçün 200 yerlik park yaradılıb, dəmir yolu körpüsü və avtomobil yolları inşa edilib. Burada üçmərtəbəli gömrük, inzibati və müştəri xidmətləri binası, həmçinin giriş-çıxışa nəzarət, texniki, ictimai obyekt binaları inşa edilib.

Mərkəzdə 7-si qatar qəbulu, 2-si konteyner, 2-si açıq yük və 2-si anbar sahələrinə boşaltma və yükləmə xətləri olmaqla, ümumilikdə 12 kilometr uzunluğunda dəmir yolu xətti çəkilib. Müəssisədə illik yükaşırma qabiliyyəti 3,5 milyon ton olan terminal vasitəsilə idxal, ixrac və tranzit yüklərin daşınması da icra olunur.

Mərkəzin ərazisindəki açıq sahə böyük həcmli yüklərin boşaldılması üçün nəzərdə tutulub. Hər biri 380 m olan, ümumi sahəsi 760 m uzunluğunda 2 xətt mövcuddur. Eyni vaxtda 50 vaqon qəbul edilərək yüklənə, boşaldıla bilər. Abşeron Logistika Mərkəzinin nəzdində fəaliyyət göstərən "Abşeron" yük dəmir yolu stansiyasına "Azərbaycan Dəmir Yolları" tərəfindən 548004 beynəlxalq stansiya kodu verilib.

### Ticarət, logistika və sənaye zonaları kəsişir

Logistika mərkəzinin əsrlər boyu mədəniyyətləri və qitələri birləşdirən tarixi İpək yolunun mərkəzində yerləşən paytaxtımızın Lökbatan qəsəbəsi ərazisində inşa edilməsi xüsusilə əhəmiyyətlidir. Çünki mərkəzin ərazisi ticarət, logistika və sənaye zonalarının kəsişməsində və nəqliyyat şəbəkələrinin mərkəzində yerləşir.

Bu müəssisənin Bakı Baş Gömrük İdarəsinə, Bakı Beynəlxalq Dəniz Ticarət Limanına, "Sədərək" və "Binə" ticarət mərkəzlərinə, həmçinin digər biznes strukturlarına yaxınlıqda yaradılması onun iqtisadi əhəmiyyətini daha da artırır. Təxmini hesablamalara görə, gün ərzində 750-800 yük maşını şəhər mərkəzində yerləşən stansiyalardan boşalan yükləri şəhərdaxili anbar və tikinti materialları bazarlarına daşıyır. Bu yüklərin şəhərdəki məntəqələrə, inşaat materialları mağazalarına və bazalarına çatdırılması isə paytaxtda nəqliyyatın hərəkətində sıxlıq və digər problemlər yaradırdı.

Logistika mərkəzinin yaradılması bu problemi həll etməklə yanaşı, həm də Bakının ekoloji durumunu daha da sağlamlaşdırıb. Belə ki, Bakı ətrafı dəmir yolu stansiyalarından Abşeron Logistika Mərkəzinə yönəldilən yüklərin həcminin 0,8 milyon ton olacağı ehtimal edilir. Beləliklə də, Bakıya gələn 2 milyon ton yük şəhərdən kənarda yerləşən logistika mərkəzinə yönəldilir. Bu da orta hesabla 125 min yük avtomobili deməkdir.

### Multimodal yük daşımaları

Bu mühüm infrastruktur obyektinin Bakı-Tbilisi-Qars, İran-Astara-Bakı, Rusiya-Yalama-Ələt dəmir yolu marşrutları ilə əlaqəsi var. Bakı-Tbilisi-Qars dəmir yolu fəaliyyətə başladıqdan sonra bu mərkəz vasitəsilə qonşu ölkələrlə idxal-ixrac əməliyyatlarını, eləcə də Azərbaycan ərazisindən multimodal yük daşımalarını daha çevik yerinə yetirməyə imkan yaranacaq.

Əlbəttə ki, bütün bunlar onu deməyə əsas verir ki, Prezident İlham Əliyevin yeni iqtisadi strategiyasının tələblərinə uyğun həyata keçirilən bütün layihələr Azərbaycanın strateji əhəmiyyətini də artırır. Çünki dünyanın 2 ən böyük nəqliyyat layihəsinin Azərbaycandan keçərək reallaşması regionun bütünlükdə strateji dəyərini artırmaqdadır. "Şimal-Cənub", "Şərq-Qərb nəqliyyat dəhlizi" hər iki istiqamətdə iqtisadi əlaqələrin daha da dərinləşməsinə xidmət edəcək.

*Rəşad BAXŞƏLİYEV, "Azərbaycan"*

## Polşada Azərbaycan məhsullarına tələbat artır

**"Made in Azerbaijan" brendinin dünyada tanıdılması, satışının təşkili və əlaqələndirilməsi məqsədilə xarici ölkələrdə "Ticarət evi"nin yaradılması prosesi davam etdirilir.**

İndiyədək Azərbaycanın Rusiya, Belarus, Ukrayna, Çin, Birləşmiş Ərəb Əmirlikləri və Latviyada "Ticarət evi" fəaliyyətə başlayıb. Belə mərkəzlərdən biri də ötən ilin dekabrın 6-da Polşanın paytaxtı Varşavada açılıb.

### 30-a yaxın Azərbaycan şirkətinin istehsal etdiyi məhsullar nümayiş etdirilir

İqtisadiyyat Nazirliyi tərəfindən yaradılmış "Azərbaycan Ticarət Evi" "Made in Azerbaijan" brendinin Polşa bazarında daha çox tanıdılmasına, məhsullarımızın ixracının təşviqi və genişləndirilməsinə dəstək göstərəcək, yerli məhsullarımızın bu ölkədə satışını təşkil edəcək, sahibkarlar arasında bu sahədə əlaqələndirməni həyata keçirəcək.

"Ticarət evi"ndə Azərbaycan şirkətlərinin müxtəlif növ məhsullarının sərgisi təşkil olunub. Daimi fəaliyyət göstərəcək sərgidə 30-a yaxın Azərbaycan şirkətinin istehsal etdiyi məhsullar, o cümlədən spirtli içkilər, quru meyvələr, nar, fındıq, çay, mürəbbə, meyvə suları, mineral sular, kosmetik məhsullar və s. nümayiş olunur.

### Avropa ölkələri üzrə ticarət nümayəndəsi Polşada təyin edilib

"Azərbaycan Ticarət Evi"nin açılış mərasimində iqtisadiyyat naziri Şahin Mustafayev bildirib ki, Polşada "Ticarət evi"nin açılmasının dövlət başçılarının ölkələrimiz arasında iqtisadi-ticarət əlaqələrinin inkişafına verdikləri böyük önəmin, Azərbaycan məhsullarına olan marağın göstəricisi olduğunu vurğulayıb.



Azərbaycanın Mərkəzi Avropa ölkələri üzrə ticarət nümayəndəsi də məhz 2017-ci ildə Polşada təyin olunub. Qeyd olunub ki, strateji tərəfdaşlıq, qarşılıqlı hörmət və dostluq prinsiplərinə əsaslanan Azərbaycan-Polşa əlaqələri uğurla inkişaf edir. Polşanın paytaxtı Varşavada "Azərbaycan Ticarət Evi"nin açılması iki ölkə arasında iqtisadi əməkdaşlığın inkişafına, işgüzar dairələr arasında əlaqələrin genişləndirilməsinə töhfəsini verəcək.

2018-ci ilin statistikasına əsasən, Polşa Azərbaycana 20 milyon dollardan çox, Azərbaycan isə Polşaya 6,5 milyon dollar investisiya yatırıb. Hazırda Azərbaycanda xidmət, sənaye və ticarət sahələrində 21 Polşa şirkəti fəaliyyət göstərir.

Əməkdaşlığın inkişafı perspektivlərindən danışan iqtisadiyyat naziri ölkələrimiz arasında sənaye, energetika, kənd təsərrüfatı, nəqliyyat, təhsil, turizm və digər sahələrdə böyük potensialı diqqətə çatdırıb. Polşa tərəfi Varşavada "Azərbaycan Ticarət Evi"nin fəaliyyətə başlamasının ikitərəfli iqtisadi əlaqələrin inkişafında mühüm addım olduğunu, ölkələrimiz arasında iqtisadi əməkdaşlığın və işgüzar münasibətlərin inkişafında böyük əhəmiyyətini vurğulayıb, qarşılıqlı iqtisadi əlaqələrin daha da genişləndirilməsinə dair fikirlərini bölüşüblər.

*R.BAXŞƏLİYEV, "Azərbaycan"*

## Azərbaycan ipəyi dünya bazarına çıxır

### Əsas müştərilər qonşu İran və Türkiyə olsa da, gələcəkdə ixrac coğrafiyası daha da genişlənəcək

**Hazırda "Made in Azerbaijan" brendinin dünyada tanıdılması istiqamətində ciddi addımlar atılmaqdadır. Maraqlıdır ki, dövlət dəstəyi sayəsində gedən davamlı proses nəticəsində fərqli sahələr üzrə yeni-yeni brendlər yaradılır.**

Təsadüfi deyil ki, bu gün ölkəmizdə ixraca yönəlik məhsullar arasında kənd təsərrüfatı təyinatlı əmtəələr xüsusi çəkiyə malik olması ilə seçilir. Belə məhsullardan biri də dünyaca məşhur olan Azərbaycan ipəyi və onun yeganə xammalı olan baramadır.

### Şöhrəti hər yana yayılan ipək

Kənd təsərrüfatının aparıcı sahələrindən olan baramaçılıq zamanla kənd zəhmətkeşlərinin əsl çörək yeri olub. Azərbaycan ipəyinin şöhrəti isə sərhədlərimizin hüdudlarını aşıb. Bununla belə son illər qeyd olunan sahə tənəzzül dövrünü yaşamaqda idi. Təsadüfi deyil ki, 2015-ci ildə respublikamızda vur-tut 775 kiloqram barama istehsal olunmuşdu. Lakin 2016-cı ildə Nazirlər Kabinetinin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş iclasında bu istiqamətdəki geriləmə sindromunun aradan qaldırılması üçün ilk vacib addım atıldı.

Prezident İlham Əliyevin baramaçılığın və tütünçülüyün inkişafı ilə əlaqədar verdiyi göstəriş ilk zamanlardan effektivliyi ilə seçildi. Bu göstərişlərə uyğun olaraq elə həmin il Çin Xalq Respublikasından və İran İslam Respublikasından 49,5 kiloqram ipəkqurdu toxumu gətirilərək respublikanın 22 rayonuna paylandı. İnsanların uzun illər bu peşə vərdişindən kənarlaşmalarına baxmayaraq nəticə müsbət oldu. Həmin il respublikada 71 ton barama istehsal edildi. İstehsal olunan yaş barama ozamankı "Şəki İpək" ASC-yə (hazırda "Azəripək" MMC) təhvil verildi və hər kiloqram üçün 8 manat pul ödənildi.









### Hazır baramadan ipək sap istehsal edilir

2017-ci ildə əldə olunan gəlirdən həvəslənən insanlar bu sahəyə daha çox maraq göstərməyə başladılar. Baramaçılığın coğrafiyası daha da genişləndirilərək 30 rayonu əhatə etdi. Bu da 248 ton yaş barama istehsalını şərtləndirdi. Elə həmin ilin mart ayında Nazirlər Kabinetinin qərarına əsasən, yaş barama istehsal edən vətəndaşlara növlü baramalara görə 5 manat məbləğində subsidiya verilməsi rəsmiləşdirildi. Hər kiloqrama görə 4 manat "Azəripək" MMC tərəfindən ödənildi.

Kümçülərin istehsal etdikləri yaş barama ipək kombinatına gətirilərək burada ilkin emal prosesindən keçirilib. İlkin emal dedikdə buradakı baramaboğan, baramaqurudan avadanlıqlara daxil olan yaş baramanın içərisindəki qurdların öldürülməsi başa düşülür. Sonra barama qurudulur və anbarlara yığılır. Bunun ardınca həmin xammal istehsalat sahəsinə ötürülür. Baramaaçan istehsalatında hazır baramadan ipək sap istehsal edilir.

### 2025-ci il üçün hədəf 6 min ton barama istehsalına nail olmaqdır

Prezident İlham Əliyevin sərəncamı ilə 2017-ci ilin noyabrında ipəkçiliyin və baramaçılığın inkişafı ilə əlaqədar dövlət proqramı qəbul edilib. Həmin sərəncamla 2018-2025-ci illərdə respublikada baramaçılığın və ipəkçiliyin inkişafına dair geniş proqramın konturları müəyyənləşdirilib. 2025-ci il üçün hədəf 6 min ton barama istehsalına nail olmaqdır.

Hazırda müvafiq istiqamətdə atılan addımlar qarşıya qoyulan vəzifələrin uğurlu icrası üçün nikbinlik yaradır. Konkret desək, 2018-ci il ölkə kümçüləri üçün uğurlu olub. Respublikada 514 min kiloqramdan çox barama istehsal edilib. Keçən ilin avqust ayının 15-dən isə "Baramaaçan" istehsalatı fəaliyyətdədir. Hazırda müəssisədə çalışanların sayı 350 nəfərdir. Yaxın gələcəkdə "Toxucu" istehsalatının da fəaliyyətinin genişləndirilməsi nəzərdə tutulur. Bu da müəssisədə 600 nəfərin çalışmasını şərtləndirəcək.

### Müəssisədə əsasən kəlağayılar istehsal olunur

Bu gün müəssisədə əsasən kəlağayılar istehsal olunur. Onların əsas alıcıları isə İran və Türkiyədən olan müştərilərdir.

Kəlağayılar daxili bazarda da satılır. İstehsal olunan ipək sapların əsas alıcıları İran və Türkiyə şirkətləridir. Pambıq saplar isə Rusiyaya və Türkiyəyə ixrac olunur. 2018-ci ildən müəssisədə ipək və pambıq parçaların istehsalına da yer verilməkdədir.

*Əli SƏLİMOV, "Azərbaycan"*

# REGİONLAR



## İstehsal sahələri genişlənir, yeni iş yerləri açılır













“Ağstafa Aqro Park”nda dənli bitkilərin toxumu istehsalı zavodunun, paxlalı bitkilərin toxumu istehsalı müəssisəsinin, taxıl çeşidləmə-qurutma və saxlama anbarının, dəyirman kompleksinin, yarımfabrikat və çörək zavodunun, makaron zavodunun, 2,4 min kvadratmetr sahədə müasir ticarət mərkəzinin, çoxfunksiyalı sərgi mərkəzinin və yeraltı avtomobil dayanacağı parkının tikintisi başa çatdırılmışdır.



Gələcəkdə 8 hektar torpaq sahəsində istixana kompleksinin quraşdırılması və 10 min tonluq soyuducu anbarların tikintisi də nəzərdə tutulmuşdur. Almaniya şirkətlərinin avadanlıq və texnologiyalarından istifadə edilən kombinatda 310 nəfər iş yeri ilə təmin edilmişdir.

Ölkə rəhbərinin xeyir-duası ilə fəaliyyətə başlayan “Karvan-L” EKO sənaye parkında gündəlik istehsal gücü 26 min kərpic və 8 min kirəmit dam örtükləri istehsalı zavodunda isə ilkin məhsul istehsalı üçün test aparılmışdır. Müəssisədə 150 nəfərin daimi işlə təmin olunması nəzərdə tutulmuşdur. Burada istixana kompleksinin quraşdırılması işlərinə də başlanılmışdır.

Bölgədə yaxşı tanınan “Saloğlu” firması da fəaliyyətini uğurla davam etdirir. Əvvəlcə firmaya məxsus yumşaq mebel fabrikinin, 2016-cı ildə isə “Modern” mebel fabrikinin açılışı olmuş, “Venzana” mebel fabrikinin təməli qoyulmuşdur. Hazırda burada istehsal olunan məhsullar daxili bazarlarla yanaşı, Rusiya, Qazaxıstan və Gürcüstana da ixrac olunur. Fabrikdə 400 nəfər çalışır. Müəssisənin istehsal sahələrini genişləndirməklə 2500 iş yerinin açılması istiqamətində iş aparılır. Yeni “Venzana” fabrikinin ümumi sahəsi 17500 kvadratmetrdir. Layihənin ümumi dəyəri 25 milyon manat təşkil edir. Layihə üzrə burada ildə orta hesabla 31 min yataq və yumşaq mebellər istehsal olunacaq. Cari ilin sonunadək istifadəyə veriləcək yeni mebel fabrikindən 2020-ci ilin ilk rübündə Avropanın bir çox ölkələrinə “Made in Azerbaijan” brendi ilə mebel ixracı nəzərdə tutulur. Bu da regionda yaşayan əhalinin məşğulluğunun təmin edilməsi ilə yanaşı, Ağstafa rayonunun ixrac potensialının artırılmasına imkan verəcəkdir.

Dövlət başçısının tapşırığına uyğun olaraq qədim xalçaçılıq ənənələrinin qorunub gələcək nəsillərə çatdırılması məqsədilə Ağstafada da xalça fabrikinin tikintisi başa çatdırılmış, burada 180 nəfər işlə təmin edilmişdir. 80 nəfərin çalışdığı “Akkord Tekstil” MMC-nin tikiş fabrikində istehsal olunan məhsullar isə Azərbaycan brendi ilə Avropaya ixrac olunur. Burada da məhsulların çeşidinin və işçilərin sayının artırılması istiqamətində işlər davam etdirilir.

Son illər rayonda kiçik və orta sahibkarlıq subyektlərinə məxsus onlarca digər müəssisələr də açılmışdır. Təkcə keçən il həyata keçirilmiş tədbirlər sayəsində 990 nəfər yeni iş yeri ilə təmin edilmişdir. Bunun 885-i daimidir. Hazırda yeni müəssisələrin yaradılması istiqamətində işlər davam etdirilir. Bu məqsədlə keçən il Sahibkarlığa Kömək Milli Fondu iş adamlarına 34 layihə üzrə 324,7 min manat güzəştli kredit vermişdir.

Rayon iqtisadiyyatının əsasını isə kənd təsərrüfatı təşkil edir. Odur ki, ərzaq məhsullarının artırılmasına ciddi diqqət yetirilir. Məhz bunun nəticəsidir ki, keçən il dövlət tərəfindən fermerlərə verilən dəstək, subsidiya, texnika təminatı sayəsində rayonda kənd təsərrüfatı məhsullarının həcmi 5,1 faiz artmışdır. Başqa sözlə, 30703 ton taxıl, 20,1 min ton kartof, 7,9 min ton tərəvəz, 2 min ton bostan bitkiləri, 13,4 min ton meyvə və 7,1 min ton üzüm, 4305 ton ət, 17170 ton süd istehsal olunmuşdur.

Rayonda suvarma suyuna olan tələbat əsasən Ağstafaçay Hidroqovşağı İstismar İdarəsi və Ağstafa Suvarma Sistemləri İdarəsi tərəfindən ödənilir. Keçən il bu idarələr tərəfindən həyata keçirilən tədbirlər nəticəsində suvarmada problem yaranmamışdı. Suvarma suyuna olan tələbatın ödənilməsi üçün daxili suvarma arxlarının təmizlənməsinə ciddi nəzarət edilmiş, qəsəbə və kəndlərdə olan subartezian quyularının il boyu işləməsi üçün onlara göstərilən texniki xidmət daim nəzarətdə saxlanılmışdır.

Abadlıq və quruculuq işləri də diqqətdə saxlanılır. Rayon mərkəzində abadlıq işləri görülmüş, Poylu qəsəbəsində çoxmənzilli yaşayış binalarının dam örtükləri dəyişdirilmiş, fasadlarında təmir işləri aparılmış, Qıraq Kəsəmən, Zəlimxan və Göycəli kəndlərində istirahət parkları istifadəyə verilmişdir. Keçən il Böyük Kəsik kəndinə təbii qazın verilməsi ilə rayonda qazlaşdırma 100 faiz başa çatdırılmış, əhalinin elektrik enerjisi ilə təminatı daha da yaxşılaşdırılmışdır.

Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı çərçivəsində 7 yeni məktəb tikilmiş, köhnə məktəblərdə əsaslı təmir işləri aparılmışdır.

Ötən il rayonun yol-nəqliyyat infrastrukturunda yenilənmə işləri də davam etdirilmiş, ümumi uzunluğu 10 kilometr olan Düzqışlaq-Kolayır-Xılxına-Qarahəsənli avtomobil yolu yenidən qurulmuşdur.

***Sabir ƏLİYEV,***
***“Azərbaycan”***

## Yollar abadlaşır

Son illər respublikamızın bölgələrində çoxsaylı infrastruktur layihələri, o cümlədən respublika və yerli əhəmiyyətli avtomobil yolları, körpülər tikilərək əhalinin istifadəsinə verilmişdir. Bu işlər ölkənin inkişaf prioritetlərinə uyğun olaraq indi də davam etdirilir. Abadlaşdırılan yollar gediş-gəlişi asanlaşdırmaqla yanaşı, iqtisadiyyatın şaxələndirilməsini sürətləndirir.





Ağdaş rayonunda da yol infrastrukturunun yeniləşməsinə, bu sahədə səliqə-sahman yaradılmasına böyük diqqət yetirilir. Belə ki, 2018-ci ildə 10 yaşayış məntəqəsini birləşdirən 11.7 min nəfər əhalinin yaşadığı 33 kilometrlik Qolqəti-Dəhnəxəlil-Qoşaqovaq-Ərəbocağı və 6 yaşayış məntəqəsini birləşdirən 7,8 min nəfər əhalinin yaşadığı 27 kilometrlik Nehrəxəlil-Tofiqi-Şəmsabad marşrutu üzrə avtomobil yollarının yenidən qurulması başa çatdırılmışdır. Şəhərin Mir Cəlal Paşayev, Babək, M.Şeyxzadə, M.Ə.Sabir, F.Səfərov, C.Məmmədquluzadə, B.Vahabzadə, Üç qovaq, M.P.Vaqif, 20 Yanvar, Ş.Şamil, K.Kərimov küçələrinə də asfalt döşənmişdir.

Hazırda 3 yaşayış məntəqəsini birləşdirən 1.8 min nəfər əhalinin yaşadığı 6.5 kilometrlik Ağcaqovaq-Ərəbşəki-Eymur marşrutu üzrə avtomobil yollarının yenidən qurulması işləri davam etdirilir.

“18 №-li Yol İstismarı” MMC tərəfindən Ağdaş-Zarağan, Ağdaş-Ləki, Ləki-Pirəzə-Xınaxlı, Aşağı Qəsil, Qəribli, Yenicə, Gürcuva avtomobil yollarında da təmir işləri aparılıb, bir çox yerdə yol nişanları və lövhələr təzələnib. Qaradeyin, Xosrov, Birinci Aral-İkinci Aral, Mürsəl, Orta Qəsil, Qülbəndə-Bəylik, Kükəl-Ərəb, Dovutlu kənd avtomobil yollarında gediş-gəlişi asanlaşdırmaq üçün səliqə-sahman yaradılıb.

Rayonun Dəhnəxəlil kəndi ərazisində inşa edilən, istehsal gücü saatda 240 kubmetr olan yeni asfalt-beton zavodunun tikintisi də yekunlaşmaq üzrədir.

***Əli SƏLİMOV,***
***“Azərbaycan”***

## Sabaha addımlayan şəhər




Ölkənin ən böyük elektrik enerjisi təminatçısı olan Mingəçevir yeni inkişaf dövrünü yaşayar. Şəhərin sənaye potensialı ildən-ilə güclənir, yeni istehsal və emal müəssisələri fəaliyyətə başlayır. Salınan parklar, xiyabanlar nur şəhərini daha da gözəlləşdirir. Dövlətin davamlı qayğısı sayəsində Mingəçevir müasir Avropa şəhəri ilə müqayisə edilə biləcək inkişaf səviyyəsinə yüksəlmişdir.

Qədirbilən övladları doğma şəhərin 70 yaşını bu yaxınlarda böyük təntənə, bayram coşqusu ilə qeyd etmişlər. 70 ildir ki, Mingəçevir Azərbaycana nur paylayır. Energetiklər üçün illər bir-birindən uğurlu gəlir. Bu illər sırasında 2018-ci ilin yekunları xüsusilə fərəhlidir. Keçən il şəhərin sənaye müəssisələrində 303,9 milyon manatlıq məhsul istehsal olunmuşdur. “Azərbaycan” İstilik Elektrik Stansiyası və “Mingəçevir SES silsiləsi” MMC keçən il 7 milyard 954 milyon kilovatsaat elektrik enerjisi istehsal etmişdir. Şəhərin digər sənaye müəssisələri - “Azneftemaş”, “Akkord Mingəçevir Maşınqayırma zavodu” ASC-lər, “ASK izolit” MMC sabit iş rejimində işləmiş və istehsal etdikləri məhsulların çeşidinin genişləndirilməsi istiqamətində məqsədyönlü tədbirlər həyata keçirmişlər. Yeni fəaliyyətə başlayan Mingəçevir Sənaye Parkı öz məhsullarını “Made in Azerbaijan” markası ilə beynəlxalq bazara ixrac edir. Ölkədə qeyri-neft sektorunu inkişaf etdirməyin uğurlu nümunələrindən olan Mİngəçevir Sənaye Parkının fəaliyyəti layihə gücünə çatdırılandan sonra şəhərdə işsizlik problemi tamamilə aradan qaldırılacaqdır.

Mingəçevirdə sahibkarlığın inkişafı iqtisadi siyasətin əsas istiqaməti olaraq qalmaqdadır. Sadələşdirilmiş qeydiyyat prosedurlarından, ayrılan çoxsaylı güzəştli kreditlərdən mingəçevirlilər də yetərincə bəhrələnir və bu üzdən özəl sektorda fəaliyyət göstərmək istəyənlərin sayı sürətlə artır.

Sabaha inamla addımlayan Mingəçevir yaraşıqlı park və xiyabanları, abad küçə və prospektləri, ilin bütün fəsillərində baharı xatırladan zümrüd libası, diqqət çəkən səliqə-sahmanı ilə göz oxşayır. Şəhərdə sağlam mənəvi-psixoloji mühit mövcuddur. İctimai asayişin etibarlı təminatı, əmin-amanlıq şəhər sakinlərində məmnunluq doğurur.

Mingəçevir Şəhər İcra Hakimiyyətinin başçısı İlham İsmayılovla söhbətimizdə iqtisadiyyatın yüksəlişi ilə yanaşı, şəhər sakinlərini daha çox maraqlandıran sosial məsələlər üstünlük təşkil edirdi. “Prezident İlham Əliyev məni Mingəçevir Şəhər İcra Hakimiyyətinin başçısı təyin edəndə verdiyi tapşırıq və tövsiyələr qarşımda yeni vəzifələr qoydu. Mingəçeviri turizm mərkəzinə çevirmək üçün tikinti, abadlıq, quruculuq işləri müasir tələblər səviyyəsində davam etdirilməli, şəhər sakinlərinin həyat şəraitini daha da yaxşılaşdırmaq, faydalı məşğulluqlarını təmin etmək üçün zəruri tədbirlər görülməli, yeni layihələr reallaşdırılmalı, əhalini narahat edən hər xırda problemin həllinə həssas yanaşılmalı, xalqa ləyaqətlə, şərəflə xidmət olunmalıdır. Onu da deyim ki, dövlət başçısının qarşıya qoyduğu vəzifələri yerinə yetirmək üçün geniş imkanlarımız, güclü kadr potensialımız var. Biz indi doğma şəhəri daha da abadlaşdırmaq üçün yeni layihələr üzərində işləyirik. Artıq hökumətə təqdim edəcəyimiz ilk təkliflər paketi hazırdır.

Fəaliyyətimizin əsas istiqamətlərindən biri də əhali ilə daha sıx təmas qurmaqdır. İndi şəhər sakinləri icra hakimiyyətində həftənin hər günü, istənilən saatda qəbul olunurlar. Vətəndaş-məmur arasında hər hansı baryer yoxdur. Biz əhali ilə yerlərdə görüşlərə daha çox üstünlük veririk. Məhəllələrdə qrafik üzrə səyyar qəbul-görüşlər artıq ənənəyə çevrilmişdir. İşin bu cür təşkili şəhər sakinlərini rahatsız edən problemlərin operativ qaydada həll edilməsinə əhəmiyyətli təsir göstərir”.

Bu günlərdə Mingəçevir şəhərinin 2018-ci ildə sosial-iqtisadi inkişafının yekunları və 2019-cu ildə qarşıda duran vəzifələrə həsr olunmuş geniş hesabat yığıncağı keçirilmiş, keçən ilin uğurları sadalanmışdır. Amma qazanılmış nailiyyətlər heç kəsi arxayınlaşdırmır. Hamını yeni ilin yeni vəzifələri düşündürür. Şəhər əhalisinin güzəranını, həyat şəraitini daha da yaxşılaşdırmağa hesablanan yeni vəzifələrin icrası üçün qüvvələr səfərbərdir. Mingəçevir Sənaye Parkının tikintisini sürətləndirməyə, su və kanalizasiya şəbəkəsində aparılan əsaslı yenidənqurma işlərini canlandırmağa, şəhər sakinləri üçün yeni iş yerlərinin yaradılmasına, çoxmənzilli binaların dam örtüklərinin əsaslı təmirinin başa çatdırılmasına, şəhərin xidmət sahələrinə özəl mənbələrdən investisiyaların cəlbini artırmağa, turizmin inkişafı istiqamətində görülən tədbirlərin əhatə dairəsinin genişləndirilməsinə və bu kimi digər məsələlərə böyük önəm verilir.

***Lazım QULİYEV,***
***“Azərbaycan”***


















## Azərbaycan Respublikasının Mərkəzi Bankı
## *kotirovka sorğuları elan edir*

**1.** Azərbaycan Respublikası Mərkəzi Bankının inzibati binalarında yerləşən Avtomatlaşdırılmış Telefon Stansiyalarına servis xidmətinin, habelə Mərkəzi Bank üçün İP telefon aparatlarının və zəruri modulun satın alınması
**2.** Azərbaycan Respublikasının Mərkəzi Bankı üçün seyflərin satın alınması

Kotirovka sorğuları üzrə əsas şərtlər toplusunu əlaqələndirici şəxsdən əldə etmək olar.
Kotirovka sorğuları üzrə möhürlənmiş və imzalanmış təklif zərfləri 10 aprel 2019-cu il saat 18:00-dək əlaqələndirici şəxs tərəfindən qəbul ediləcək və 11 aprel 2019-cu il saat 10:00-da Mərkəzi Bankın inzibati binasında açılacaqdır.
**Kotirovka sorğuları üzrə əlaqələndirici şəxs - Elvin Şirdanov, telefon - 493-11-22 (daxili 428).**

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

"Azərbaycan" qəzetinin 13 fevral və 27 fevral 2019-cu il tarixli nömrələrində "Azərsu" ASC-nin daxili vəsaiti hesabına nəqliyyat vasitələri, mexanizm, avadanlıqların əsaslı və cari təmir işlərinin satın alınması məqsədilə dərc edilmiş tenderdə iddiaçıların rəsmi müraciətlərinə əsasən, tender təkliflərinin və təklif təminatlarının qəbulu vaxtı 16 aprel 2019-cu il saat 16:00-a, təkliflərin açılışı isə 17 aprel 2019-cu il saat 16:00-a dəyişdirilmişdir.

**Əlaqələndirici şəxs - Təchizat və satınalmaların idarə olunması departamentinin Satınalmaların təşkili şöbəsinin mühəndisi Hikmət Qasımov (hikmat.qasimov@azersu.az +994124314767(2249).**

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

"Azərbaycan" qəzetinin 13 fevral və 27 fevral 2019-cu il tarixli nömrələrində "Azərsu" ASC-nin daxili vəsaiti hesabına əyləc qəlibləri, süzgəclər, akkumlyator batareyaları və yağların satın alınması məqsədilə dərc edilmiş tenderdə iddiaçıların rəsmi müraciətlərinə əsasən, 1, 2 və 3-cü LOT-larda (əyləc qəlibləri, süzgəclər, akkumlyator batareyaları satın alınması) tender təkliflərinin və təklif təminatlarının qəbulu vaxtı 15 aprel 2019-cu il saat 16:00-a, təkliflərin açılışı isə 16 aprel 2019-cu il saat 16:00-a dəyişdirilmişdir.

**Əlaqələndirici şəxs -Təchizat və satınalmaların idarə olunması departamentinin Satınalmaların təşkili şöbəsinin mühəndisi Hikmət Qasımov (hikmat.qasimov@azersu.az +994124314767(2249).**

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin "Sumqayıt Kimya Sənaye Parkı" MMC dəftərxana ləvazimatlarının və təsərrüfat mallarının satın alınması məqsədilə kotirovka sorğusu keçirir. Kotirovka sorğusunda iştirak etmək üçün qiymət təklifi (nəqliyyat, sığorta, vergi, gömrük rüsumları və digər xərclər nəzərə alınmaqla) və digər zəruri sənədlər 05 aprel 2019-cu il saat 18:00-dək "Sumqayıt Kimya Sənaye Parkı" MMC-nin Bakı şəhəri, Xocalı prospekti, 37, "Demirchi Tower" ünvanında yerləşən ofisinə təqdim edilməlidir. Əlaqələndirici şəxs - Abbas Mamedov (telefon: 012-488-80-65). Zərflər 08 aprel 2019-cu il saat 12:00-da həmin ünvanda açılacaqdır.

Maraqlananlar müvafiq məlumatları "Sumqayıt Kimya Sənaye Parkı" MMC-nin Bakı şəhəri, Xocalı prospekti, 37, "Demirçi Tower" ünvanında yerləşən ofisindən yazılı müraciət etməklə və ya www.scip.az saytından əldə edə bilərlər.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Dövlət Pedaqoji Universiteti **PETRA layihəsi çərçivəsində digər maşın və avadanlıqların** satın alınmasını həyata keçirir. Maraqlanan təşkilatlar **(012) 598-12-61** telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.

Müsabiqədə iştirak etmək üçün sənədlər **12.04.2019-cu il saat 17:00-dək** qəbul olunur.

**Ünvan: Bakı, Üzeyir Hacıbəyli, 68**

***Müsabiqə komissiyası***

### SIĞORTAÇININ (TƏKRARSIĞORTAÇININ) və HÜQUQİ ŞƏXS SIĞORTA BROKERİNİN MƏNFƏƏT və ZƏRƏRİ HAQQINDA HESABAT (rüblük və illik)

*Sığortaçının ( təkrarsığortaçının ) və ya sığorta brokerinin adı: "Şəbəkə Sığorta Brokeri" MMC Hesabat dövrü: 01 Yanvar 2018-31 Dekabr 2018*

| Gəlirlər | Məbləğ |
|---|---|
| **Əsas əməliyyat gəliri:** | 758.881,92 |
| Birbaşa sığorta üzrə komisiyon muzd | 95.014,77 |
| Təkrarsığorta üzrə komisiyon muzd | 663.867,15 |
| Təlim xidmətləri üzrə gəlirlər | |
| Xüsusi ədəbiyyat satışından gəlirlər | |
| Xüsusi proqram təminatının satışından gəlirlər | |
| Hüquqi ekspertiza xidmətindən gəlirlər | |
| **İnvestisiya gəlirləri üzrə** | |
| **Məzənnə dəyişməsindən yaranan gəlir** | |
| **Sair gəlirlər** | 37.035,00 |
| **CƏMİ GƏLİRLƏR** | **795.916,92** |
| **Xərclər** | |
| **Əsas əməliyyat xərcləri:** | 518.457,38 |
| **İşlərin aparılması xərcləri** | 280.032,79 |
| **Məzənnə dəyişməsindən yaranan xərclər** | |
| **Sair xərclər** | |
| **CƏMİ XƏRCLƏR** | **798.490,17** |
| **Maliyyə mənfəəti (zərəri)** | -2.573,25 |
| **Mənfəətin nizamnamə kapitalına yönəldilən hissəsi** | |
| **Vergiqoyulmadan əvvəl mənfəət (zərər)** | -2.573,25 |
| **Mənfəət vergisi** | |
| **Hesabat dövründə xalis mənfəət (zərər)** | -2.573,25 |

# Kür çayının Şirvan məntəqəsində suyun səviyyəsi 12 santimetr azalıb

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentinin verdiyi məlumata görə, ötən günlər ərzində bəzi yerlərdə yağan yağış nəticəsində respublikanın əsasən Lənkəran-Astara bölgəsi çaylarında sululuğun artımı müşahidə olunub. Hazırda Böyük Qafqazın Quba-Xaçmaz bölgəsi çaylarında sululuq ongünlük normanın 90-100, Kiçik Qafqazın çaylarında 40-120, Lənkəran-Astara bölgəsi çaylarında isə 90-160 faizini təşkil edir.

Departamentdən AZƏRTAC-a bildiriblər ki, martın 29-da Kür çayının Qıraqkəsəmən məntəqəsində suyun səviyyəsində 8 santimetr artım müşahidə olunub. Hazırda məntəqədə su sərfi saniyədə 177 kubmetr olmaqla ongünlük normanın 58 faizini təşkil edir.

Qanıx çayının Əyriçay məntəqəsində suyun səviyyəsində 6 santimetr artım qeydə alınıb. Hazırda məntəqədə su sərfi saniyədə 68 kubmetr təşkil etməklə ongünlük normanın 61 faizinə bərabərdir.

Martın 29-da Kür çayının aşağı axınında suyun səviyyəsi əsasən azalıb. Belə ki, Kür çayının Surra məntəqəsində 4, Şirvanda 12, Salyanda 9 santimetr azalma qeydə alınıb. Kür çayının Bankə və Araz çayının Novruzlu məntəqələrində isə suyun səviyyəsi dəyişməyib. Hazırda Surra məntəqəsində suyun səviyyəsi 333, Şirvanda 181, Salyanda 99, Bankədə 167, Araz çayının Novruzlu məntəqəsində isə 33 santimetrə bərabərdir.

# Ermənistan silahlı qüvvələrinin bölmələri atəşkəs rejimini 21 dəfə pozub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 21 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistanın Noyemberyan rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Kəmərli, Qaymaqlı kəndlərində yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Çiləbürt, Ağdam rayonunun Şıxlar, Baş Qərvənd, Xocavənd rayonunun Kuropatkino, Cəbrayıl rayonunun Nüzgar və Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə məruz qalıb.

## Azercell
## abunəçilərinin nəzərinə

01 May 2019-cu il tarixindən etibarən, aşağıdakı cədvəldə göstərilən ölkələrdə həm fakturalı xətt, həm də fakturasız (SimSim) xətt sistemlərinə aid nömrələrdə, rominq xidmətində internetdən istifadəyə görə rominq sazişi mövcud olan operatorlar üzrə vahid xidmət haqları tətbiq ediləcək.

| Ölkə | Mobil İnternet xidmətinin hər bir MB görə xidmət haqqı |
|---|---|
| BELARUS, QAZAXISTAN, QIRĞIZISTAN, MOLDOVA, RUSİYA, TACİKİSTAN, UKRAYNA, ÖZBƏKİSTAN. | 3,50 AZN |

**Qeyd: Arzuolunmaz internet xərclərindən sığortalanmaq üçün Rominq İnternet Paketlərindən istifadə etmək tövsiyə olunur. Abunəçilər rominq xidməti, tarifləri, həmçinin Rominqdə İnternet Paketlərinin sifarişi və istifadə şərtləri, o cümlədən "Azercell Telekom" MMC tərəfindən təqdim edilən xidmətlər, tariflər və keçirilən kampaniyalar barədə ətraflı məlumatları rəsmi internet səhifəmizdən (www.azercell.com), həmçinin Müştəri Xidmətlərinə (MX ofisləri, həftənin 7 günü 24 saat ərzində fəaliyyət göstərən Telefon Mərkəzi) müraciət etməklə əldə etmək imkanına malikdirlər.**

## Müstəqil Auditorun Hesabatı

*"Şirvan Sığorta və Təkrarsığorta Brokeri" Məhdud Məsuliyyətli Cəmiyyətinin Səhmdarları və Rəhbərliyinə:*

**"Şirvan Sığorta və Təkrarsığorta Brokeri" Məhdud Məsuliyyətli Cəmiyyəti**

**MƏNFƏƏT VƏ YA ZƏRƏR VƏ DİGƏR MƏCMU GƏLİRLƏR HAQQINDA HESABAT DEKABR 2018-Cİ İL TARİXİNDƏ BİTƏN İL ÜZRƏ**

*(Azərbaycan manatı ilə)*

| | Qeydlər | 31 dekabr 2018-ci il tarixində bitən il üzrə | Fəaliyyətə başlama tarixindən 31 dekabr 2017-ci il tarixinədək |
|---|---|---|---|
| **GƏLİRLƏR** | | | |
| Broker fəaliyyətindən əldə olunan gəlirlər | | 3,980.50 | - |
| İdarəçilik gəlirləri | | **3.980,50** | 00 |
| **XƏRCLƏR** | | | |
| İşçi heyəti üzrə xərclər | 7 | 17,112.63 | 5,850.00 |
| Dövlət Sosial Müdafiə Fonduna ayırmalar | | 3,670.34 | 1,462.50 |
| Bank xərcləri | | 156.64 | 2.70 |
| Rabitə xidmətləri | | | |
| Digər xərclər | | 11077.34 | 186.99 |
| **ƏMƏLİYYAT GƏLİRİ/(ZƏRƏRİ)** | | **(32,016.95)** | **(7,502.19)** |
| Məzənnə fərqindən yaranan xalis (zərər)/gəlir | | - | - |
| Faiz gəlirləri | 8 | - | - |
| **MƏNFƏƏT VERGİSİNDƏN ƏVVƏL MƏNFƏƏT/(ZƏRƏR)** | | - | - |
| Mənfəət vergisi xərci | 9 | - | - |
| Təxirəsalınmış vergi xərci | | - | - |
| **İL ÜZRƏ CƏMİ MƏCMU GƏLİR/(ZƏRƏR)** | | **(28,036.45)** | **(7,502.19)** |

**Rəhbərlik adından:**

**Baş direktor** **Baş mühasib**

**14 mart 2019-cu il**
**Bakı, Azərbaycan Respublikası**

**14 mart 2019-cu il**
**Bakı, Azərbaycan Respublikası**

**"Şirvan Sığorta və Təkrarsığorta Brokeri" Məhdud Məsuliyyətli Cəmiyyəti**

**MALİYYƏ VƏZİYYƏTİ HAQQINDA HESABAT 31 DEKABR 2018-Cİ İL TARİXİNƏ**

*(Azərbaycan manatı ilə)*

| **AKTİVLƏR** | Qeydlər | 31 dekabr 2018-ci il | 31 dekabr 2017-ci il |
|---|---|---|---|
| *Uzunmüddətli aktivlər* | | | |
| Qeyri-maddi aktivlər | | 11000 | - |
| Əsas vəsaitlər | 10 | | |
| ***Cəmi uzunmüddətli aktivlər*** | | **11000** | - |
| *Cari aktivlər* | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 11 | 591,89 | - |
| Satış üçün saxlanılan maliyyə alətləri | 12 | | |
| Ödənişə qədər saxlanılan qısamüddətli maliyyə aktivləri | 13 | | |
| Banklara qoyulmuş depozitlər | 14 | | |
| Debitor borcları | 15 | 861,06 | 1895.01 |
| Digər aktivlər | 16 | | - |
| *Cəmi cari aktivlər* | | **1452,95** | **1895.01** |
| **CƏMİ AKTİVLƏR** | | **12452,95** | **1895.01** |
| **KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | | |
| *Kapital* | | | |
| Nizamnamə kapitalı | 17 | 1000 | 1000.00 |
| Bölüşdürülməmiş mənfəət/(Yığılmış zərər) | | (35538,64) | (7502.19) |
| *Cəmi kapital* | | **(34538,64)** | **(6502.19)** |
| *Uzunmüddətli öhdəliklər* | | | |
| Subordinasiya borcu | 18 | | |
| Uzunmüddətli borc öhdəlikləri | 19 | | |
| Təxirəsalınmış vergi öhdəliyi | 10 | | |
| Cəmi uzunmüddətli öhdəliklər | | - | - |
| Cari öhdəliklər | | | |
| Qısamüddətli borc öhdəlikləri | 20 | 29,842.00 | 1,142.00 |
| Müştərilərə qaytarılacaq vəsaitlər | 21 | | |
| Digər öhdəliklər | | 17149.59 | 7255.20 |
| ***Cəmi cari öhdəliklər*** | | 46991,59 | 8397.20 |
| ***Cəmi öhdəliklər*** | | 46991,59 | 8397.20 |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | 12452,95 | 1895.01 |

**Rəhbərlik adından:**

**Baş direktor** **Baş mühasib**

**14 mart 2019-cu il**
**Bakı, Azərbaycan Respublikası**

**14 mart 2019-cu il**
**Bakı, Azərbaycan Respublikası**

***Rəy***

Biz "Şirvan Sığorta və Təkrarsığorta Brokeri" MMC-nin (Şirkət) 31 dekabr 2018-ci il tarixinə maliyyə vəziyyəti haqqında hesabatdan və həmin tarixə bitən il üzrə mənfəət və ya zərər və digər məcmu gəlirlər, kapitalda dəyişikliklər və pul vəsaitlərinin hərəkəti haqqında hesabatlardan, habelə mühüm mühasibat uçotu prinsipləri və digər izahedici məlumatların icmalından ibarət olan maliyyə hesabatlarının auditini apardıq.

Bizim fikrimizcə, əlavə edilən maliyyə hesabatları 31 dekabr 2018-ci il tarixinə Şirkətin maliyyə vəziyyətini və həmin tarixdə başa çatan il üzrə maliyyə nəticələrini və pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına ("MHBS") uyğun olaraq bütün əhəmiyyətli aspektlər üzrə düzgün əks etdirir.

***Rəy üçün əsas***

Biz auditi Beynəlxalq Audit Standartlarına ("BAS") uyğun olaraq apardıq. Bizim həmin standartlar üzrə öhdəliklərimiz hesabatımızın maliyyə hesabatlarının auditi üzrə auditorun məsuliyyəti bölməsində təsvir olunur. Mühasiblər üçün Beynəlxalq Etika Standartları Şurasının "Peşəkar mühasiblərin etika məcəlləsi"nə ("MBESŞ Məcəlləsi") uyğun olaraq biz Şirkətdən müstəqilik və biz MBESŞ Məcəlləsinə uyğun olaraq etika ilə bağlı digər öhdəliklərimizi yerinə yetirmişik. Biz hesab edirik ki, əldə etdiyimiz auditor sübutu rəyin bildirilməsi üçün yetərli və müvafiq əsası təmin edir.

***Maliyyə hesabatları üçün rəhbərliyin və Şirkətin idarə edilməsinə cavabdeh olan şəxslərin məsuliyyəti***

Rəhbərlik maliyyə hesabatlarının Maliyyə Hesabatları Beynəlxalq Standartlarına uyğun hazırlanması və düzgün təqdim edilməsi, həmçinin fırıldaqçılıq və ya səhv nəticəsində yaranmasından asılı olmayaraq əhəmiyyətli səhvlər olmayan maliyyə hesabatlarının hazırlanması üçün rəhbərliyin lazım bildiyi daxili nəzarət üzrə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırlayarkən, rəhbərliyin Şirkəti ləğv etmək və ya əməliyyatları dayandırmaq niyyəti olduğu və ya bunu etməkdən başqa heç bir real alternativi olmadığı hallar istisna olmaqla, rəhbərlik Şirkətin daim fəaliyyətdə olan müəssisə kimi fəaliyyətinə davam etməsi qabiliyyətinin qiymətləndirilməsinə, daim fəaliyyətdə olan müəssisə kimi bağlı məsələlərin (belə məsələlər varsa) açıqlanmasına və mühasibat uçotunun daim fəaliyyətdə olan müəssisə konsepsiyasının istifadə edilməsinə görə məsuliyyət daşıyır.

Şirkətin idarə edilməsinə cavabdeh olan şəxslər Şirkətin maliyyə hesabatlarının hazırlanması prosesinə nəzarət üçün məsuliyyət daşıyır.

**Direktor: Lalə Abbasova**

**14 mart 2019-cu il**
**Bakı, Azərbaycan Respublikası**

*Bakı Şəhər İcra Hakimiyyəti tərəfindən Nailə Əli qızı Qurbanovaya məxsus Bakı şəhəri, Yasamal rayonu, İ.Qutqaşınlı küçəsi, ev 4, mənzil 74 ünvanına verilmiş Order itdiyi üçün etibarsız sayılır.*

*Bakı Şəhər İcra Hakimiyyəti tərəfindən Reyhan Bəhram qızı Qurbanovaya məxsus Bakı şəhəri, Yasamal rayonu, İ.Qutqaşınlı küçəsi, ev 4, mənzil 73 ünvanına verilmiş Order itdiyi üçün etibarsız sayılır.*

## ALLAH RƏHMƏT ELƏSİN!

Milli Məclisin Səhiyyə komitəsinin sədri, Azərbaycan-Türkiyə Parlamentlərarası Dostluq Qrupunun rəhbəri Əhliman Əmiraslanov Azərbaycan-Türkiyə İş Adamları Birliyi İdarə Heyətinin sədri Cemal Yangına anası

**ZENNURE YANGININ**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

AMEA-nın Fəlsəfə İnstitutunun rəhbərliyi institutun əməkdaşı Solmaz Qurbanovaya qardaşı, fəlsəfə elmləri doktoru, professor

**BABƏK QURBANOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Məmməd Əfşan ailəsi ilə birlikdə fəlsəfə elmləri doktoru, professor

**BABƏK QURBANOVUN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Azərbaycan Banklar Assosiasiyasının Rəyasət Heyəti və üzvləri Azərbaycan-Türkiyə İş Adamları Birliyi İdarə Heyətinin sədri Cemal Yangına anası

**ZENNURE YANGININ**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1
"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

*Gündəlik qəzet*
Tiraj 8567
Sifariş 1017
Qiyməti 40 qəpik